15 sentyabr 2021 №69 (1846)

www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

Qəzet 1991-ci ilin yanvarından çıxır

## Azərbaycanda bütün dini-mədəni abidələr mənşəyinə görə ayrı-seçkilik qoyulmadan qorunur

### G20 Konfessiyalararası Forumunda dünyaya bir daha bəyan edildi

Sentyabrın 12-dən 14-dək İtaliyanın Bolonya şəhərində G20 Sammiti çərçivəsində Konfessiyalararası Forum (G20 İnterfaith Forum) keçirilib. Azərbaycan Respublikasının mədəniyyət naziri Anar Kərimov Forumda iştirak edib.

2014-cü ildə ilk dəfə Avstraliyada keçirilən Forum hər il G20 sammitini qəbul edən ölkədə təşkil olunur. Ötən illərdə "G20 İnterfaith Forum"u Türkiyə (2015), Çin (2016), Almaniya (2017), Argentina (2018), Yaponiya (2019) və Səudiyyə Ərəbistanında (2020) keçirilib. Bu il "Böyük iyirmilik" sammitinə oktyabr ayında İtaliya ev sahibliyi edəcək. "G20 İnterfaith Forum"un gündəliyi dinlərarası dialoqdan təhsil, səhiyyə və humanitar yardımadək geniş humanitar spektri əhatə edir. Bolonyada keçirilən Forumda da bir sıra aktual mövzular diqqətə alınıb.

Mədəniyyət naziri Anar Kərimov sentyabrın 13-də Forumun "Təhsil və dini müxtəliflik" mövzusunda sessiyasında çıxış edib.

Tədbirdə BMT-nin Sivilizasiyalar Alyansının Ali nümayəndəsi Migel Angel Moratinos, İCESCO-nun Baş direktoru Salim bin Məhəmməd əl-Malik, İtaliyanın təhsil naziri Patrizio Bianki, Albaniyanın təhsil, idman və gənclər naziri Evis Kuşi və digər qonaqlar iştirak edib.

İştirakçıları səmimi salamlayan nazir Anar Kərimov Forumun həyata keçirdiyi layihələri yüksək qiymətləndirərək Azərbaycanın



əməkdaşlığa önəm verdiyini və birgə fəaliyyətin ölkələr arasında dostluq əlaqələrinin möhkəmləndirilməsinə istiqamətləndiyini bildirib. "Din ümumi mədəniyyətlərarası dialoq bacarıqlarının inkişafında əhəmiyyətli və müsbət rol oynayır. Dini liderlər münaqişələrin qarşısının alınmasında və dialoqun təşviqində əsas rol oynama potensialına malikdirlər. Onlar xüsusən gənclər arasında bu dialoqu gücləndirmək və təşviq etmək üçün dərin təsir gücünə malikdirlər", – deyə nazir çıxışında qeyd edib.

Anar Kərimov bildirib ki, əsrlərdir Azərbaycanda müxtəlif xalqların və dinlərin nümayəndələri mehriban, sülh və harmoniya şəraitində yaşayırlar. Məhz buna görə də Azərbaycan çoxmillətli, çoxkonfessiyalı və sivilizasiyaların qovuşduğu ölkə kimi tanınır.

Diqqətə çatdırılıb ki, Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən 2008-ci ildə mədəniyyətlərarası dialoqa dair "Bakı Prosesi" təşəbbüsü irəli sürülüb, 2010-cu ildə BMT Baş Assambleyasında ölkəmizin Dünya Mədəniyyətlərarası Dialoq Forumu keçirmək niyyəti bəyan edilib və Bakı şəhəri 2011-ci ildən Dünya Mədəniyyətlərarası Dialoq Forumuna ev sahibliyi edir.

davamı səh. 2-də

## İnsanlarla təmasda olun, onların qayğıları ilə yaşayın



Son illər ərzində bir çox yüksəkvəzifəli məmurlar, yerli və mərkəzi icra orqanlarının rəhbərləri, eyni zamanda, sabiq rəhbərlər, nazirlər, icra başçıları cinayət məsuliyyətinə cəlb edilmişlər. Hər kəs bilməlidir ki, heç kim məsuliyyətdən yaxasını qurtara bilməz. Bunu mən dəfələrlə demişəm, bir daha demək istəyirəm, sizə də deyirəm və bu gün bütün digər məmurlara deyirəm – əgər məmurlar öz işində yenə də bu çirkin əməllərdən əl çəkməsələr, onların da aqibəti eyni olacaq.

Prezident İlham Əliyev bu sözləri sentyabrın 14-də Cəlilabad və Şəmkir rayonlarına icra başçıları təyin olunmuş Rafiq Cəlilov və Rəşad Tağıyevi videoformatda qəbul edərkən bildirib.

Dövlət başçısı daha əvvəl bu xüsusda etdiyi çıxışları da xatırladaraq "Hətta çıxışlarımın birində demişdim ki, əgər təmiz işləmək istəmirsinizsə, getməyin bu işlərə, razılıq verməyin, yoxsa bədbəxt olacaqsınız. Əgər siz bu məsuliyyətin altına girirsinizsə, onda, bax, dediyim kimi, qanun çərçivəsində işləməlisiniz və bu yüksək etimadı doğrultmalısınız", – deyə əlavə edib.

Prezident vurğulayıb ki, bu xəbərdarlıqdan nəticə çıxarmayanlar sonda özlərini biabır edirlər: "Əgər kimsə hesab edir ki, bu, onlar üçün nəticəsiz qalacaq, səhv edir".

"Mən hesab edirəm, artıq hər kəs başa düşüb ki, dövlət məmuru nümunə olmalıdır, yerlərdə insanların dolanışığı, insanların rahatlığı dövlət məmurunun fəaliyyətindən asılıdır. Onlar elə işləməlidirlər ki, daim insanlarla bir yerdə olsunlar. Mənim tövsiyələrimin içində bu tövsiyə də həmişə xüsusi yer tutur. Sizə də deyirəm, siz insanların arasında olmalısınız, onlarla daim təmasda olmalısınız, onların qayğıları ilə yaşamalısınız və çalışmalısınız ki, imkan daxilində onlara kömək edəsiniz", – deyə Prezident İlham Əliyev bildirib.

## Xalq rəssamı Mikayıl Abdullayevin 100 illiyi qeyd olunacaq

Prezident İlham Əliyev Azərbaycan təsviri sənətinin görkəmli nümayəndəsi, Xalq rəssamı Mikayıl Abdullayevin 100 illik yubileyinin qeyd olunması ilə bağlı sərəncam imzalayıb.

səh. 2

## "Mədəniyyət naminə sülh" kampaniyasına beynəlxalq dəstək

G20 Sammiti çərçivəsində Bolonyada Azərbaycanın irəli sürdüyü "Mədəniyyət naminə sülh" qlobal kampaniyasına həsr olunmuş görüş keçirilib.

səh. 2

## Üzeyir Hacıbəyli XIII Beynəlxalq Musiqi Festivalı keçiriləcək

18-24 sentyabr tarixində Heydər Əliyev Fondu, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi və Azərbaycan Bəstəkarlar İttifaqının təşkilatçılığı ilə Üzeyir Hacıbəyli XIII Beynəlxalq Musiqi Festivalı keçiriləcək.




Azərbaycan professional musiqisinin və milli bəstəkarlıq məktəbinin banisi Üzeyir Hacıbəylinin xatirəsinə həsr olunan və 2009-cu ildə əsası qoyulan Üzeyir Hacıbəyli Beynəlxalq Musiqi Festivalı pandemiyanın doğurduğu məcburi fasilədən sonra yenidən ənənəvi formata – canlı konsert proqramları və tədbirlərlə gerçəkləşəcək. Hər il dahi bəstəkarın doğum günü – sentyabrın 18-də başlanan festival 2020-ci ildə telefestival formatında (öncəki festivalların konsert proqramlarının nümayişi) təqdim olunmuşdu.

2020-ci ilin 44 günlük Vətən müharibəsində Ali Baş Komandanın qətiyyəti, Ordumuzun şücaəti nəticəsində işğal altındakı torpaqlarımız, o cümlədən Üzeyirin doğma şəhəri Şuşa azad edildi. Tarixi ədalət bərpa edildi və Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə Şuşa şəhəri Azərbaycanın mədəniyyət paytaxtı elan olundu.

Bu il Üzeyir Hacıbəyli Beynəlxalq Musiqi Festivalının ilk konserti də sentyabrın 18-də – Üzeyir Musiqi Günündə Şuşada keçiriləcək. Konsert proqramı açıq havada – Xalq artisti Ağaverdi Paşayevin rəhbərliyi altında F.Əmirov adına Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblı və tanınmış solistlərin iştirakı ilə təqdim olunacaq.

Festival çərçivəsində Bakı, Gəncə və Ağdamda bir neçə tədbirin təşkili planlaşdırılıb. Festival çərçivəsində Azərbaycanın bədii kollektivləri, solistləri ilə yanaşı, ABŞ və Polşadan dəvət olunmuş musiqiçilərin də çıxışı nəzərdə tutulub.

davamı səh. 2-də

## Qarabağ xalçaları dünyanın ən böyük ev tekstili sərgisində



Sentyabrın 14-də Moskvadakı "Ekspotsentr" Sərgi-Konqres Mərkəzində dünyanın ən böyük ev tekstili təchizatçıları və dizaynerləri sərgisi – "HEİMTEXTİLE-2021" açılıb.

Sərgidə Azərbaycanı İqtisadiyyat Nazirliyinin və "AZPROMO" Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun dəstəyi ilə "Made in Azerbaijan" vahid stendi altında 9 şirkət təmsil edir.

davamı səh. 2-də

## Bakıda caz havası davam edir

Mədəniyyət Nazirliyinin dəstəyi ilə keçirilən XVI Beynəlxalq Bakı Caz Festivalı davam edir. Sentyabrın 10-da başlanan festivala müxtəlif ölkələrdən ifaçı və qruplar qatılıb. Konsertlər "Beer Hall and Music Club"da keçirilir.




Festivalın ilk günündə tanınmış cazmenlər – Əməkdar artistlər Rain Sultanov, Şahin Növrəsli, İsfar Sarabski, eləcə də Nicat Aslanov və triosu, türkiyəli caz ifaçısı Sinem İslamoğlu sevilən kompozisiyalarını təqdim ediblər.

Festivalın ikinci günündə Əməkdar artist, saksofon ifaçısı Rain Sultanov ölkəmizin dilbər guşələrinə ithaf etdiyi "Azərbaycanın yeddi səsi" adlı əsərini təqdim edib. Əməkdar artist Şahin Növrəslinin müşayiəti kompozisiyalara xüsusi rəng qatıb.

davamı səh. 2-də

## Filmlərimiz beynəlxalq festivallarda

Rejissor İlqar Nəcəfin "Suğra və oğulları" filmi 6-15 oktyabr tarixində Koreya Respublikasında keçiriləcək XXVI Busan Beynəlxalq Film Festivalında iştirak edəcək. Bu il festivalın "Kim Jiseok" mükafatına namizəd qismində seçilmiş yeddi ekran əsəri arasında "Suğra və oğulları" da yer alıb. Busan festivalında, həmçinin filmin ilk dünya premyerası olacaq.

Bakı Media Mərkəzi, "Butafilm", "Arizona Productions" (Fransa) və "Salarfilm"in (Almaniya) birgə istehsal etdiyi filmin ssenari müəllifləri İlqar Nəcəf, Asif Rüstəmov və Roelof Jan Minneboa (Niderland), quruluşçu operatoru Ayhan Salar (Almaniya), səs rejissoru Michael Menzkedir (Almaniya). Filmin əksər çəkilişləri Daşkəsən rayonunun Suqovuşan kəndində aparılıb.

davamı səh. 8-də

## 15 sentyabr Azərbaycan-Türkiyə qardaşlığının rəmzidir



Bolşevik Rusiyası Birinci Dünya müharibəsindən çıxdıqdan sonra Qafqaz cəbhəsindən geri çəkilən rus ordusu ilə birlikdə erməni silahlı dəstələri də Cənubi Qafqaza gəldilər.

Anarxiyanın hökm sürdüyü Cənubi Qafqazda bu zaman rəsmi və qeyri-rəsmi olaraq üç hakimiyyət – müvəqqəti hökumətin orqanları, sovetlər və milli şuralar fəaliyyət göstərirdi. Rusiya hərbçiləri silahlarını qarşı qırğın törətmiş, geri çəkilərkən isə Borçalıda, İrəvan quberniyasında, Cənubi Azərbaycan və indiki Azərbaycan Respublikası ərazisində qanlar tökən erməni bandalarına vermişdilər. Türk və müsəlman olduqlarından etibar etmədiyi üçün çarizmin hərbi xidmətə çağırmadığı azərbaycanlıların ordusu yox idi. Bakıda qurulan sovet hakimiyyəti dinc türk-müsəlman əhaliyə zülm edirdi. Qırğınların zirvə nöqtəsi 1918-ci ilin martında Bakı şəhərində törədilən soyqırımı oldu. Cənubi Qafqazın digər yerlərində də davam etdirilən qırğınların qarşısını əvvəlcə Transqafqaz Komissarlığı, sonra isə onun yerində qurulan Transqafqaz Seymi ala bilmədi.

davamı səh. 5-də

## Anım Gününə həsr olunmuş sərgi keçiriləcək




səh. 7

## Gənclərin yaradıcı texnologiyalar sahəsində fəaliyyətinə dəstək

"İCESCO akseleratoru" layihəsinin təqdimatı

səh. 3

## Türk dünyasının solistləri İzmir səhnəsində



səh. 8

№69 (1846)
15 sentyabr 2021
www.medeniyyet.az

# Xalq rəssamı Mikayıl Abdullayevin 100 illiyi ilə bağlı sərəncam imzalanıb

2021-ci ilin dekabr ayında Azərbaycan təsviri sənətinin görkəmli nümayəndəsi, SSRİ və Azərbaycanın Xalq rəssamı, SSRİ Rəssamlıq Akademiyasının akademiki, Dövlət mükafatı laureatı, professor Mikayıl Hüseyn oğlu Abdullayevin anadan olmasının 100 ili tamam olur.

Prezident İlham Əliyev sentyabrın 10-da müasir Azərbaycan təsviri sənətinin inkişafında və geniş şöhrət qazanmasında mühüm xidmətlər göstərmiş görkəmli fırça ustasının anadan olmasının 100-cü ildönümünün qeyd olunması ilə bağlı sərəncam imzalayıb.

Sərəncamda vurğulanır ki, Mikayıl Abdullayev parlaq ənənələrə malik Azərbaycan rəssamlıq məktəbinin böyük simalarındandır. Onun təsviri sənətin ən müxtəlif sahələrini əhatə edən koloritli yaradıcılığı xalqımızın mədəni sərvətlər xəzinəsində özünəməxsus layiqli yer tutur. Sənətkar çoxsaylı tematik lövhə, mənzərə və natürmortlarında doğma təbiətin gözəlliklərini, insanların quruculuq əzmini və mənəvi zənginliyi incə rəng çalarları ilə tərənnüm edib, dahi Nizaminin "Xəmsə"sinin motivləri əsasında monumental rəngkarlığın bənzərsiz nümunələrini yaradıb. Azərbaycan ədəbiyyatına dərin məhəbbətlə ərsəyə gətirdiyi silsilə portretlər və klassik ədəbi əsərlərə çəkdiyi parlaq illüstrasiyalar rəssamın Şərq və Qərb incəsənətinin mütərəqqi ənənələrinin qovuşuğunda formalaşdırdığı yeni dəst-xəttin dolğun ifadəsidir. Dünyanın nüfuzlu sərgi salonlarında, muzey və qalereyalarında uğurla nümayiş etdirilən əsərləri Mikayıl Abdullayevi fitri istedad sahibi kimi tanıdıb.

Sərəncamda Mədəniyyət Nazirliyinə, Azərbaycan Rəssamlar İttifaqının təkliflərini nəzərə almaqla, Xalq rəssamı Mikayıl Abdullayevin 100 illik yubileyi ilə əlaqədar tədbirlər planı hazırlayıb həyata keçirmək tapşırılıb.

# Azərbaycanda bütün dini-mədəni abidələr mənşəyinə görə ayrı-seçkilik qoyulmadan qorunur

*əvvəli səh. 1-də*



Təsadüfi deyil ki, BMT Baş katibinin 2017, 2018 və 2019-cu illərdə Baş Assambleyaya təqdim etdiyi məruzələrdə "Bakı Prosesi"nin əhəmiyyəti xüsusi vurğulanıb və Dünya Mədəniyyətlərarası Dialoq Forumu mədəniyyətlər və dinlər arasında dialoq sahəsində BMT-nin əsas qlobal platformalarından elan olunub.

Nazir qeyd edib ki, Azərbaycan çoxəsrlik multikulturalizm ənənələrinə, eləcə də UNESCO konvensiyalarının irəli sürdüyü dəyərlərə sadiq qalaraq təkcə Azərbaycanda deyil, dünyanın müxtəlif yerlərində mədəni irsin qorunub saxlanılmasına yönəlmiş bir sıra layihələr həyata keçirir. Heydər Əliyev Fondu Azərbaycanda bir çox abidəni bərpa etməklə yanaşı, xarici ölkələrdə də bu istiqamətdə mühüm layihələr reallaşdırır. Fond tərəfindən Parisdə Luvr Muzeyi, Vatikanda Müqəddəs Marçellino və Petro kilsəsi, Bolqarıstanda Prapezitsa qəsri və qalası, Strasburqda Notrdam kilsəsi və s. abidələrdə bərpa işləri aparılıb.

**"Mədəniyyət və təhsil vasitəsilə istədiyimiz gələcəyi təmin edəcəyimizə inanıram"**

Mədəniyyətin sülhə dəstək verdiyi kimi, sülhün də mədəniyyətin inkişafı üçün əsas şərt olduğunu vurğulayan nazir müharibələrin və vandalizmin mədəniyyəti hədəf seçdiyini, bütün dünyada bunun qarşısını birdəfəlik almaq məqsədilə Azərbaycan Mədəniyyət Nazirliyi tərəfindən "Mədəniyyət üçün sülh" (#Peace4Culture) qlobal çağırışının və bu çağırış çərçivəsində "Sülh üçün yarat" (#Create4Peace) kampaniyasının elan edildiyini diqqətə çatdırıb.

Anar Kərimov çıxışında vurğulayıb ki, Azərbaycan otuz ilə yaxın Ermənistanın işğalı altında qalmış ərazilərini 2020-ci ildə azad edib və bu ərazilərdə işğal dövründə dağıdılmış bütün dini-mədəni abidələrin dini mənşəyinə görə heç bir ayrı-seçkilik qoyulmadan Azərbaycan dövləti tərəfindən bərpasına başlanılıb. Baxmayaraq ki, ölkəmiz bu illər ərzində hərbi təcavüzə, ərazilərinin işğalına, etnik təmizləməyə məruz qalıb, Azərbaycan bu gün də sülhpərvər siyasət yeridərək bu istiqamətdə təşəbbüsləri, sülh çağırışlarını irəli sürür.

Nazir çıxışının sonunda mədəni müxtəlifliyin təşviqinin, insanlar, cəmiyyətlər və xalqlar arasında dialoq və anlaşmanın müasir dünyamızın gələcəyi üçün əhəmiyyətini bir daha qeyd edib. "Mən dünyada əmin-amanlıq üçün təhsil və mədəniyyət vasitəsilə bu mesajın gələcək nəsillərə çatdırılmasında uğur qazanacağımıza və bununla da istədiyimiz gələcəyi təmin edəcəyimizə inanıram", – deyən Anar Kərimov Forumun işinə uğurlar arzulayıb.

Sessiyada çıxış edən BMT Sivilizasiyalar Alyansının ali nümayəndəsi Migel Angel Moratinos sülh anlayışının və sülh naminə fəaliyyətlərinin daha sıx şəkildə önə sürülməsinin vacibliyini qeyd edib. O, Azərbaycanın "Mədəniyyət naminə sülh" qlobal təşəbbüsünün zamanında irəli sürülmüş strateji layihə olduğunu qeyd edib.

# "Mədəniyyət naminə sülh" kampaniyasına beynəlxalq dəstək

Xəbər verildiyi kimi, Azərbaycan Respublikasının mədəniyyət naziri Anar Kərimov G20 Sammiti çərçivəsində Konfessiyalararası Forumda iştirak etmək üçün İtaliyanın Bolonya şəhərində səfərdə olub.

Sentyabrın 12-də Bolonyada mədəniyyət naziri Anar Kərimov, BMT-nin Sivilizasiyalar Alyansının ali nümayəndəsi Migel Angel Moratinos, İCESCO-nun Baş direktoru Salim bin Məhəmməd əl-Malikin iştirakı ilə Azərbaycanın irəli sürdüyü "Mədəniyyət naminə sülh" (Peace4-Culture) qlobal kampaniyasına həsr olunmuş görüş keçirilib.

Görüşdə əsas mövzu Azərbaycanın yeni təşəbbüsü olan "Mədəniyyət naminə sülh" kampaniyasının beynəlxalq müstəvidə uğurla həyata keçirilməsi, BMT sistemində təbliği, eyni zamanda müsəlman ölkələri və İslam Əməkdaşlıq Təşkilatına daxil olan müxtəlif qurumlar vasitəsilə təşviqinə dair müzakirələr aparılıb. Həmçinin "Bakı Prosesi", Dünya Mədəniyyətlərarası Dialoq Forumu və bu çərçivədə Azərbaycanla həm BMT-nin Sivilizasiyalar Alyansı, həm də İCESCO ilə birgə həyata keçirilən layihələr barədə fikir mübadiləsi aparılıb.



Nazir Anar Kərimov "Mədəniyyət naminə sülh" qlobal kampaniyasına Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən yüksək dəstəyin ifadə olunduğunu və bu istiqamətdə Mədəniyyət Nazirliyinə konkret tapşırıqların verildiyini diqqətə çatdırıb. Eyni zamanda bu layihə çərçivəsində BMT-nin Sivilizasiyalar Alyansı ilə birgə beşillik fəaliyyət planının hazırlanması, fəaliyyət planında BMT-nin Sivilizasiyalar Alyansı ilə yanaşı, İCESCO-nun da tərəfdaş qismində müxtəlif layihə və proqramlarının əks olunmasının vacibliyi qeyd edilib.

BMT-nin Sivilizasiyalar Alyansının Ali nümayəndəsi Migel Angel Moratinos iyun ayında Azərbaycana səfəri zamanı ona göstərilən yüksək qonaqpərvərliyə görə təşəkkürünü bildirib. O, Prezident İlham Əliyevlə keçirilən görüşü xatırladaraq, müzakirələr zamanı bu istiqamətdə müxtəlif ideyaların irəli sürüldüyünü diqqətə çatdırıb. Ali nümayəndə bu qlobal kampaniyaya hər cür dəstək verəcəyini, BMT-də bu layihənin təqdimatının keçiriləcəyini, eyni zamanda BMT-nin Sivilizasiyalar Alyansı olaraq layihəyə qlobal tərəfdaşların cəlb edilməsində mühüm rol oynayacaqlarını deyib.

İCESCO-nun Baş direktoru Salim bin Məhəmməd əl-Malik də qlobal layihəyə təşkilat tərəfindən böyük önəm verildiyini vurğulayıb, layihənin təsis olunduğu tədbirdə təqdim edilən videomüraciətində təşkilat olaraq bu dəstəyi ifadə etdiyini xatırladıb. O, İCESCO-nun hazırda bir çox sülhyaratma layihələri ilə bağlı ideyalarının olduğunu bildirərək təməli qoyulan bu layihənin də gələcəkdə kampaniya çərçivəsində inteqrasiyasının vacibliyindən danışıb.

Görüşdə layihəyə yeni tərəfdaşların cəlb edilməsi üçün gələcəkdə qlobal tərəfdaşlıq şəbəkəsinin qurulması, eləcə də bu ilin sonunadək bir sıra vacib addımların atılması qərara alınıb. Xüsusən BMT-də layihənin təqdim edilməsinin, həmçinin dekabr ayında İCESCO-nun Baş Konfransında layihə ilə bağlı təqdimatın keçirilməsinin vacibliyi qeyd olunub.

# Nizami Gəncəvinin 880 illiyi İCESCO-da qeyd olunacaq

İtaliyanın Bolonya şəhərində keçirilən G-20 sammitinin Konfessiyalararası Forumunda iştirak edən Azərbaycan Respublikasının mədəniyyət naziri Anar Kərimov İCESCO-nun baş direktoru Salim bin Məhəmməd əl-Malik ilə görüşüb.

Görüşdə Azərbaycan-İCESCO əlaqələrindən söhbət açılıb, Baş direktorun 2021-ci ilin yanvar ayında Azərbaycana səfəri, həmin səfər çərçivəsində müzakirə olunan məsələlərlə bağlı yenidən fikir mübadiləsi aparılıb.

Anar Kərimov İCESCO-nun Baş direktorunun bu səfərinin Azərbaycan cəmiyyətində böyük rezonans doğurduğunu, İCESCO-nun 44 günlük Vətən müharibəsi zamanı və müharibədən sonrakı dövrdə ölkəmizə verdiyi dəstəyin bir daha yüksək qiymətləndirildiyini diqqətə çatdırıb. Eyni zamanda həmin səfər çərçivəsində razılaşdırılmış məqamların həyata keçirilməsi üçün konkret addımların atılması ilə bağlı müzakirələr aparılıb.

Salim əl-Malik öz növbəsində Azərbaycana yüksək səviyyədə rəsmi səfərə dəvət edildiyinə və Prezident İlham Əliyev tərəfindən qəbul olunduğuna görə təşəkkürünü bildirib, görüşlərdə əldə olunan razılaşmaların icrası ilə bağlı İCESCO-nun artıq fəaliyyətə başladığını deyib.

Vurğulanıb ki, buraya ən vacib məqam olaraq Şuşa şəhərinin "İslam Mədəniyyətinin Paytaxtı" elan edilməsi, Azərbaycanda İCESCO-nun regional ofisinin açılması ilə bağlı məsələlərin tamamlanması, həmçinin İCESCO-da Nizami Gəncəvinin 880 illiyinin qeyd olunması kimi məsələlər daxildir.

Görüş zamanı cari ilin sonuna kimi İCESCO-nun Baş katibliyində Nizami Gəncəvi irsinə həsr olunmuş böyük beynəlxalq tədbirin təşkili, regional ofis ilə bağlı məsələlərin Azərbaycan tərəfinin təklif etdiyi məqamlara aydınlıq gətirildikdən sonra işçi qrup səviyyəsində müzakirə edilməsinə dair ümumi razılıq əldə olunub. Eləcə də bu ilin sonunadək həm İCESCO Baş Konfransında, həm də mədəniyyət nazirlərinin konfransında bu məqamlarla bağlı təqdimatların edilməsi razılaşdırılıb.

Baş direktor eyni zamanda Azərbaycan tərəfinin yeni təşəbbüsü olan "Mədəniyyət naminə sülh" (Peace4Culture) qlobal kampaniyasına öz dəstəyini ifadə edərək 2021-ci ilin dekabr ayında keçiriləcək İCESCO Baş Konfransı çərçivəsində bu kampaniyanın geniş təqdimatının keçirilməsinə razılığını bildirib.

# Bakıda caz havası davam edir





*əvvəli səh. 1-də*

Konsertin ikinci hissəsində səhnə türkiyəli sənətçilərin ixtiyarında olub. Sinem İslamoğlu musiqiçi Fatih Çağlayanın rəhbərlik etdiyi "Fetiblue band" qrupu ilə soul, blüz və digər janrlarda mahnıları təqdim edib.

Festivalın üçüncü günü gənc musiqiçi, Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının Fortepiano fakültəsinin məzunu, caz festivallarının iştirakçısı Nicat Aslanov triosu ilə dinləyicilərə unudulmaz caz saatı yaşadıb.

Pianoçu, bəstəkar, 2009-cu ildə Montrö Caz Festivalının qalibi, Əməkdar artist İsfar Sarabski də ecazkar ifası ilə dinləyicilərini növbəti dəfə heyran edib. İkihissəli konsertdə o öz bəstələri ilə yanaşı populyar caz musiqi nömrələrini də səsləndirib.

Sentyabrın 14-də növbəti konsert proqramına yerli və əcnəbi musiqiçilər qatılıb. "Beer Hall and Music Club"da Azərbaycandan Diana Hacıyeva və Əfqan Rəsul, Almaniyadan "Kristof Lauer trio"su çıxış edib.

XVI Bakı Caz Festivalı çərçivəsində təşkil edilən "İ am Jazzman" müsabiqəsinin qalibləri də elan edilib. Hər festivalda ənənəvi olaraq təşkil edilən bu müsabiqə yeni adlara, gənc istedadlara yol açır, onlara öz bacarıqlarını nümayiş etdirməyə şərait yaradır. İki mərhələdən ibarət seçmə turdan keçən gənc cazmenlər öz bacarıqlarını nümayiş etdiriblər.

Birinci yerə Rüstəm Sadıqlı (vokal), ikinci yerə Məhəmməd Allahverdiyev (piano), üçüncü yerə Əsmər Nəcəfova (vokal) və Albina Pyakşeva (vokal) layiq görülüblər. Müsabiqənin xüsusi mükafatı isə 11 yaşlı pianoçu Fərid Zeynalova təqdim olunub.

Qeyd edək ki, XVI Bakı Caz Festivalı sentyabrın 18-dək davam edəcək.

**Lalə AZƏRİ**

# Üzeyir Hacıbəyli XIII Beynəlxalq Musiqi Festivalı keçiriləcək

*əvvəli səh. 1-də*

Azərbaycan Bəstəkarlar İttifaqından (ABİ) verilən məlumata görə, sentyabrın 22-də festival çərçivəsində Üzeyir Hacıbəyli adına konsert salonunda "Üzeyir Hacıbəyli və Müslüm Maqomayev" mövzusunda elmi konfrans və konsert, sentyabrın 24-də isə görkəmli musiqişünas alim, akademik Zemfira Səfərovanın kitablarının təqdimatı keçiriləcək. Təqdimatda Qədim Musiqi Alətləri Dövlət Ansamblı (bədii rəhbər – Xalq artisti Munis Şərifov) və solistlərin iştirakı ilə konsert proqramı da olacaq.

Eyni zamanda, budəfəki festival çərçivəsində ilk dəfə olaraq "Üzeyir sənətinin gənclik sədaları" adı altında yeni proqram üzrə gənclərə böyük səhnədə özlərini nümayiş etdirmək imkanı yaradılacaq.

Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrından isə bildirilib ki, festival çərçivəsində iki opera tamaşasının nümayişi nəzərdə tutulur.

Sentyabrın 21-də Üzeyir Hacıbəylinin "Leyli və Məcnun" operası nümayiş olunacaq. Əsas partiyaları respublika muğam müsabiqəsinin laureatı Rəvanə Əmiraslanlı (Leyli) və Əməkdar artist Elnur Zeynalov (Məcnun) ifa edəcəklər. Tamaşanı Əməkdar incəsənət xadimi Sevil Hacıyeva idarə edəcək.

Sentyabrın 24-də isə italyan bəstəkarı Cüzeppe Verdinin "Traviata" operasının tamaşası olacaq. Tamaşada baş rolu – Violetta partiyasını ifa etmək üçün tanınmış polşalı müğənni, vokalçıların beynəlxalq müsabiqələrinin laureatı İvona Sobotka dəvət olunub.

Alfred partiyasını Xalq artisti Samir Cəfərov ifa edəcək.

Mövcud pandemiya şəraiti ilə əlaqədar tədbirlərə, eləcə də teatr tamaşalarına giriş Operativ Qərargahın müəyyən etdiyi qaydalara uyğun həyata keçiriləcək.

# Qarabağ xalçaları dünyanın ən böyük ev tekstili sərgisində

*əvvəli səh. 1-də*

Açılışda çıxış edən Azərbaycanın Rusiyadakı ticarət nümayəndəsi Ruslan Əliyev ümidvar olduğunu bildirib ki, növbəti illərdə ölkəmiz bu beynəlxalq sərgidə daha geniş stendlə iştirak edəcək, Rusiya ilə iqtisadi əlaqələr təkcə ərzaq mallarının ixracı deyil, həm də tekstil sahəsində də inkişaf edəcək.

R.Əliyev qeyd edib ki, builki sərginin ekspozisiyasında "Azərxalça" ASC-nin məhsulları xüsusi yer tutur. Burada həm qədim, həm də müasir üslubda toxunmuş əl xalçalarını görmək olar. "Azərbaycanda xalçaçılıq sənətinin tarixi uzaq əsrlərə gedib çıxır. Müasir dövrdə





Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığı ilə yaradılan xüsusi şərait sayəsində bu sənət növü ölkəmizdə sürətlə inkişaf etməyə başlayıb", – deyə o bildirib.

"Azərxalça" ASC-nin İdarə Heyətinin sədri Emin Məmmədov çıxışında qeyd edib ki, sərgidə Azərbaycanda ən böyük əl işi xalça istehsalçısının fabriklərində hazırlanan xalçalar təqdim olunur. "Azərxalça"nın ölkədə 21 müəssisəsinin fəaliyyət göstərdiyini diqqətə çatdıran E.Məmmədov bildirib ki, Azərbaycan xalçaları əsrlərlə İpək yolu vasitəsilə Rusiya bazarlarına çıxarılıb. "HEİMTEXTİLE-2021" sərgisi bu ənənəni dirçəltməyə imkan yaradacaq.

"Sərgidə 71 Azərbaycan xalçası nümayiş olunur. İstərdik ki, sərgiyə gələn qonaqlar Azərbaycanın müxtəlif xalçaçılıq məktəbləri ilə tanış olsunlar. Lakin bu dəfə biz əsasən Qarabağ xalçalarına üstünlük vermişik. Bu gün biz fəxrlə həm klassik, həm də müasir Qarabağ xalçalarını sərgi ziyarətçilərinə təqdim edirik", – deyə o bildirib.

E.Məmmədov "Azərxalça"nın sərgiyə yeniliklərlə gəldiyini də deyib: "Bu yeniliklərdən biri də müəssisəmizin bütün xalçalarının "QR" kodlu etiketlə təchiz edilməsidir. Həmin "QR" kodları telefona yükləməklə hər bir xalçanın toxunma tarixçəsi – toxunduğu yer və tarix, xalçanın adı barədə məlumat almaq mümkündür. Bu, Azərbaycan xalçaçılığında olduqca mühüm bir yenilikdir".

Qeyd edək ki, "HEİMTEXTİLE" sərgisi Rusiyada 23-cü dəfə keçirilir. Sərgi 20-dən çox ölkənin ev tekstili və dekoru sahəsində çalışan mütəxəssisləri ilə əlaqələr qurmaq, əməkdaşlıq etmək, dizayn sahəsində yeni trendlərlə tanış olmaq imkanı yaradır.

Sərgi sentyabrın 16-da başa çatacaq.

# Gənclərin yaradıcı texnologiyalar sahəsində fəaliyyətinə dəstək

## "İCESCO akseleratoru" pilot layihəsinin təqdimatı keçirilib

Xəbər verildiyi kimi, Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatı (İCESCO), İCESCO üzrə Azərbaycan Respublikasının Milli Komissiyası, Bakı Ali Neft Məktəbi və "NewSpace İnnovation" şirkətinin iştirakı ilə "İCESCO akseleratoru" adlı pilot layihə həyata keçirilir. Layihə İCESCO-nun üzvü olan ölkələrdə akselerator proqramları vasitəsilə dinamik yaradıcı texnologiya və mədəniyyət sahələrinin inkişaf etdirilməsi məqsədi daşıyır.



Sentyabrın 11-də Bakı Ali Neft Məktəbində "İCESCO akseleratoru" pilot layihəsinin təqdimatı keçirilib.

Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımov bu layihəyə qoşularaq öz ideyalarını tətbiq etdikləri üçün tələbələrə təşəkkürünü bildirib. O, tədbirə toplaşan qonaqların tələbələrlə sıx əməkdaşlıq etməsini arzulayıb. Layihədə 23 komandanın iştirak etdiyini deyən E.Qasımov bildirib ki, bu gün onlar öz ideyalarını reallaşdırmaq üçün gözəl bir fürsət qazanıblar.

Mədəniyyət nazirinin birinci müavini Elnur Əliyev gənclərin ölkədə aparıcı yerləri tutmalı olduğunu söyləyib. Bildirib ki, Azərbaycan Nizami Gəncəvi, Nəsimi, Füzuli kimi dahi şəxsiyyətlər yetişdirən qədim mədəniyyətə və yüksək dəyərlərə malik bir ölkədir. Bunun dünyaya çatdırılmasında gənclərimizin də üzərinə mühüm məsuliyyət düşür.

E.Əliyev bildirib ki, bir sıra beynəlxalq təşkilatlar Qarabağ məsələsində hər zaman ikili mövqe tutmuşlar. Ölkəmizin başçısı onları 30 illik Qarabağ münaqişəsini həll etmək üçün ədalətli mövqe tutmağa çağırsa da, bunun əməli nəticəsi olmayıb. Azərbaycana dəstək olan yalnız bir neçə beynəlxalq təşkilat var ki, onlardan biri də İCESCO-dur.

Tədbirə onlayn qoşulan İCESCO-nun Baş direktoru Salim bin Məhəmməd əl-Malik bildirib ki, "İCESCO akseleratoru" proqramı dünyada ilk dəfə olaraq Azərbaycan, Qazaxıstan və Özbəkistanda tətbiq olunur və ilkin olaraq 5 sənaye sahəsini əhatə edir: bunlar kənd təsərrüfatı, rəqəmsal media, maliyyə texnologiyaları, əyləncə və oyunlar, turizm və qida texnologiyaları sahələridir. O, gənclərin bu proqram vasitəsilə öz bacarıqlarını inkişaf etdirəcəyini vurğulayıb.

Açılış mərasimində İCESCO-nun Elm və texnologiya bölməsinin məsləhətçisi Məhəmməd Şərif, İCESCO üzrə Azərbaycan Respublikası Milli Komissiyasının baş katibi, Mədəniyyət Nazirliyinin Aparat rəhbəri Vasif Eyvazzadə çıxış edərək layihənin əhəmiyyətindən danışıb və Azərbaycan-İCESCO əməkdaşlığının davamlı olacağını bildiriblər.

Sonra "NewSpace İnnovation" şirkətinin təsisçisi Leyla Tağızadə layihə haqqında məlumat verib.

Qeyd edək ki, pilot layihə olaraq Azərbaycan, Qazaxıstan və Özbəkistanda həyata keçirilən "İCESCO akseleratoru"nun birinci mərhələsində milli səviyyədə yarışlarda iştirak etmək üçün qeydiyyatdan keçmiş ən yaxşı startaplar yerli münsiflər heyəti tərəfindən seçilib. Milli səviyyədə yarışlar 11 sentyabr tarixində ikigünlük düşərgə (bootcamp) şəklində başlayıb və burada komandalara biznesin qurulması, biznes modelləri, müştəri araşdırmaları mövzularında təlimlər keçirilib.

İkinci mərhələdə düşərgə altı həftə ərzində intensiv mentor sessiyaları ilə davam edəcək. Bu mərhələdə komandalar ideyalarını təkmilləşdirəcək, təklif və prototiplər hazırlayaraq münsiflər heyəti qarşısında çıxış edəcəklər. Hər ölkənin 3 ən yaxşı komandası final mərhələsində iştirak etmək hüququ qazanacaq.

Üçüncü mərhələdə hər ölkədən finala çıxan komandalar investor və sahibkarlar qarşısında startap ideyalarını təqdim edərək mükafat üçün mübarizə aparacaqlar.

Müsabiqədə iştirak etmək üçün qeydiyyat 6 avqust – 8 sentyabr tarixində https://newspace.az/cla/ linki üzərindən aparılıb.

Akselerator (ingiliscə "to accelerate" – sürətləndirmək sözündən) startaplar üçün intensiv təhsil proqramıdır.

# Xalq artisti Rəfiqə Axundovaya "Şöhrət" ordeni təqdim olunub

Xəbər verdiyimiz kimi, Azərbaycan Respublikası Prezidentinin 6 avqust 2021-ci il tarixli sərəncamı ilə görkəmli baletmeyster, Xalq artisti Rəfiqə Hacı qızı Axundova Azərbaycan mədəniyyətinin inkişafında xidmətlərinə görə "Şöhrət" ordeni ilə təltif olunub.

Mədəniyyət naziri Anar Kərimov sentyabrın 10-da sənətkarı evində ziyarət edərək ordeni ona təqdim edib. Nazir Rəfiqə Axundovaya xoş arzularını bildirib, cansağlığı, uzun ömür diləyib.

Rəfiqə Axundova Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının solisti, baş baletmeysteri olub. Sənətkar teatrın solisti kimi dünya və Azərbaycan balet sənətinin bir çox nümunələrində mürəkkəb partiyaları böyük uğurla ifa edərək geniş tamaşaçı rəğbəti qazanıb. O, yaradıcılıq fəaliyyəti boyunca, həmçinin Misir, Yəmən, Əlcəzair, Türkiyə və İsveçdə çalışıb, ölkəmizi dünyaya tanıdıb, milli xoreoqrafiya sənətini layiqincə təbliğ edib. Rəfiqə Axundovanın həyat yoldaşı, Xalq artisti Maqsud Məmmədovla birgə quruluş verdiyi dahi Azərbaycan bəstəkarı Qara Qarayevin "Yeddi gözəl" və "İldırımlı yollarla" baletləri ən nüfuzlu teatr səhnələrini bəzəyən gözəl sənət əsərlərinə çevrilib.

# Həştərxanda klassik musiqi festivalında Firəngiz Əlizadənin əsərləri səslənib

9-11 sentyabr tarixində Rusiyanın Həştərxan şəhərində "OperaFirst. Astrakhan – 2021" Xəzər Klassik Musiqi Festivalı keçirilib. İlk dəfə təşkil olunan festivalın rəngarəng proqramında simfonik və kamera musiqisi nümunələri, musiqisevərlərin geniş rəğbətini qazanmış məşhur ariyalar, uvertüra və intermediyalar səslənib.




Festivalın konsertlərində, populyar klassik musiqi əsərləri ilə yanaşı, müasir musiqinin iki tanınmış nümayəndəsi – Estoniya bəstəkarı Arvo Pyart və Azərbaycan Bəstəkarlar İttifaqının sədri, Xalq artisti Firəngiz Əlizadənin yaradıcılığı da təqdim olunub. Aktual musiqinin bu iki korifeyinin vokal, simfonik və kamera musiqi janrlarında öz parlaq təcəssümünü tapan əsərləri "Şərq-Qərb" tendensiyasının əsas istiqamətlərini izləməyə imkan yaradır.

Festivalın açılış konsertində Həştərxan Filarmoniyasının böyük zalında Rusiya Federasiyasının Xalq artisti M.Qolikovun dirijorluğu ilə Xəzəryanı Kamera Orkestri konsert proqramını təqdim edib. İlk musiqi nömrəsi kimi səslənən Firəngiz Əlizadənin "Metamorfozlar" əsəri tamaşaçıların böyük rəğbətini qazanıb. Bu əsərlə bağlı festivalın saytında verilən məlumatda diqqətə çatdırılır ki, müəllif "Metamorfozlar"ı ilk olaraq simli orkestr – Berlin Filarmoniyasının 12 violonçeli üçün yazıb. Qeyd edək ki, festivalın konsert proqramında həmçinin Firəngiz Əlizadənin violonçel və fortepiano üçün "Habilsayağı" əsəri də yer alıb.

# Azərbaycan Ali Hərbi Məktəbində konsert proqramı

Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin təşkilatçılığı ilə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində yeni tədris ilinin başlanması və andiçmə mərasimi ilə əlaqədar bədii proqram keçirilib.

İdarədən bildirilib ki, Azərbaycan Respublikasının Dövlət Himninin ifası ilə başlayan tədbirdə şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Aparıcılar Könül Muxtarova və Ayaz Məmmədov Ali Hərbi Məktəbin şəxsi heyətini yeni tədris ilinin başlanması münasibətilə təbrik ediblər. Vurğulanıb ki, Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında 44 günlük Vətən müharibəsində göstərdiyi rəşadət, qazandığı Zəfər xalqımızın qürur mənbəyidir. Aparıcılar müzəffər Azərbaycan Ordusunun gələcək peşəkar kadrlarına – kursantlara dərslərində uğurlar arzulayıblar.

Sonra müğənni Aysel Əlizadə kursantlar qarşısında çıxış edib. Proqrama qatılan sənətçilər sevilən mahnılarla, "Səma" rəqs ansamblı isə incə rəqsləri ilə izləyiciləri sevindirib.

# Dünya İrs Şəhərləri Təşkilatının onlayn formatda illik iclası

"İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin üzv olduğu Dünya İrs Şəhərləri Təşkilatının (OWHC) onlayn formatda illik iclası keçirilib.

İdarədən bildirilib ki, iclasda bir sıra təşkilati məsələlər və gələcək fəaliyyət istiqamətləri müzakirə edilib. Həmçinin "İrs naminə Jean-Paul-Lallier mükafatı"nın və "Yeni başlanğıc. Yeni baxış. Yeni şəhər" mövzusunda tarixi şəhərlərə həsr olunmuş beynəlxalq videomüsabiqənin qalibləri elan edilib.

İdarənin təşkilati və əlaqələndirmə dəstəyi ilə videomüsabiqədə iştirak edən Azərbaycan Dövlət İqtisad Universitetinin tələbəsi Nurcan Daşdəmirova 18-21 yaş kateqoriyasında birinci yeri tutub. O, müsabiqəyə İçərişəhərlə bağlı olan "Buta" adlı video ilə qatılıb.

Onlayn iclasda "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi İdarə Heyətinin sədri Əsgər Ələkbərov çıxış edərək OWHC-nin yeni seçilmiş baş katibini və müsabiqə qaliblərini təbrik edib. O, çıxışında OWHC ilə İçərişəhər arasında əməkdaşlığın yüksək səviyyədə davam etdiyini vurğulayıb, eləcə də təşkilat tərəfindən keçirilən müsabiqələrin tarixi şəhərlərin beynəlxalq səviyyədə təbliği, gənclərin mədəni irs və tarixi abidələr haqqında məlumatlılıq səviyyəsinin artırılması baxımından əhəmiyyətli olduğunu bildirib.

Qeyd edək ki, "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi 2016-cı ildə Dünya Şəhərləri Təşkilatı ilə əməkdaşlıq edir və 2018-ci ildə təşkilatın Direktorlar Şurasının iclasına ev sahibliyi edib.

# "İçərişəhər" və "Katara" mədəniyyət şəhərciyi əməkdaşlıq edəcək

"İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi və Qətərin paytaxtı Dohadakı "Katara" mədəniyyət şəhərciyi müxtəlif layihələrin həyata keçirilməsində əməkdaşlıq edəcək.



Sentyabrın 13-də Şirvanşahlar Sarayı Kompleksində "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi İdarə Heyətinin sədri Əsgər Ələkbərov və Katara Mədəniyyət Şəhərciyi Fondunun baş direktoru Xalid bin İbrahim əl-Süleyti tərəfindən anlaşma memorandumu imzalanıb.

İdarədən bildirilib ki, memorandumun əsas məqsədi iki qurum arasında mədəni irsin təşviqi, birgə elmi-mədəni tədqiqatların, sərgi-ekspozisiyaların, simpoziumların, təbliğat-təşviqat tədbirlərinin təşkili istiqamətində əməkdaşlığın həyata keçirilməsi və bununla da Azərbaycan və Qətər arasında mədəni əlaqələrin inkişafına töhfə verilməsidir.

Qeyd edək ki, "Katara" mədəniyyət şəhərciyi müxtəlif beynəlxalq mədəniyyət layihələrinin, o cümlədən sərgilərin, festivalların, konfransların keçirildiyi mərkəz rolunu oynayır. Mərkəzin məqsədi müxtəlif mədəniyyətləri bir araya gətirməklə ölkələrarası əlaqələri təşviq etməkdir.

# Məşhur xalça hanadan endirildi

## "Çələbi"nin bir nümunəsi də Luvr Muzeyində saxlanılır

Azərbaycan Milli Xalça Muzeyində Qarabağ qrupuna aid "Çələbi" xalçasının qədim ənənələrə uyğun şəkildə hanadan kəsimi keçirildi. Sentyabrın 10-da gerçəkləşən mərasimdə Serbiya, Türkmənistan və Əlcəzairin ölkəmizdəki səfirliklərinin nümayəndələri, muzey işçiləri və mətbuat nümayəndələri iştirak edirdi.

Tədbiri giriş sözü ilə açan muzeyin Ənənəvi texnologiya şöbəsinin müdiri Əfşan Rzayeva qeyd etdi ki, bu gün kəsimi reallaşdırılan "Çələbi" xalçası 2019-cu ildə UNESCO-nun Dünya İrs Komitəsinin 43-cü sessiyası çərçivəsində "Azərbaycan mədəni irsi Luvr Muzeyində" adlı sərgidə nümayiş olunan unikal xalçanın tam replikasıdır. Xalçanın yüksəkkeyfiyyətli toxunuşu, kompozisiya quruluşunun dəqiqliyi və özünəməxsus, mükəmməl rəng tərtibatı ilə seçildiyini söyləyən Ə.Rzayeva şöbədə unudulmuş xalçatoxuma texnikalarını bərpa etmək məqsədilə bütün xovsuz xalça texnologiyalarını, boyanmamış yundan xalçatoxumanı yaşatmaqla yanaşı, xovlu xalçaların məşhur nümunələrinin replikalarının toxunması işinin yüksək səviyyədə həyata keçirildiyini diqqətə çatdırdı.

Muzeyin baş rəssamı, Əməkdar rəssam Taryer Bəşirov xalça haqqında məlumat verdi. Bildirdi ki, "Çələbi" adlı xalça kompozisiyası Qarabağın ətraf kəndlərində, o cümlədən Bərdənin Çələbilər kəndində toxunub. Görkəmli xalça tədqiqatçısı Lətif Kərimovun fikrinə əsasən, türk xalqlarında "çələbi" sözü bəy, əfəndi, həmçinin yüksək mənsəb sahiblərinə verilən fəxri titul idi. Xalçanın ara sahəsinin mərkəzində "Çələbi" xalçalarına xas eyni quruluşlu iki göl elementi verilib. Qarabağ xalçaçılığında geniş yayılmış "Günəş" və ya "Çələbi" adlı göl elementi hər tərəfə şüalarını yayan günəşin rəmzi olub, həm də ilahi nura işarədir. On iki ləçəkli oxşəkilli göl elementi XIV-XVI əsrlərin peşəkar rəssamlarının yaratdıqları medalyonları təqlid edir və Qarabağ xalçalarının digər qrupları arasında da istifadə olunurdu. Bu elementlər əsasən "Əjdahalı" xalçalarının bədii quruluşunda xüsusi yer tuturdu.

Rəssam vurğuladı ki, ara sahənin boşluğunda göllərdən başqa "kilimgülü", "çiçək yatağı", "almagülü", gül şəkilli heyvan ləpirləri, "göz naxışları" və digər doldurucu elementlərdən istifadə olunub: "Xalçanın haşiyə quruluşu ana haşiyə və onu əhatələyən iki bala (kiçik) haşiyədən ibarətdir. Ana haşiyə naxışları ulduz elementlərinin zəncirvarı əlaqəsi ilə ağ yerlik üzərində qırmızı, yaşıl, göy, sürməyi və qara rənglərlə verilib. Qarabağın "Əjdahalı" xalçalarının rəng koloritini bu xalçada da müşahidə etmək olar. Göllərin və naxışların əsasən ağ və qırmızı yerlik üzərində verilməsi onları daha da əlvan və şux edib.

Xalçaya diqqətlə baxanda orada 16 şüa təsviri olduğunu görmək mümkündür. Həmin elementlərdən 12-si ayların sayını, qalan 4 element isə fəsilləri, dünyanın hissələrini bildirir".





Daha sonra çıxış edən Azərbaycan Milli Xalça Muzeyin Şuşa filialının müdiri, "Azərxalça" ASC-nin istehsalat üzrə direktoru Əlisəfa Nuriyev müəssisə tərəfindən "Çələbi" xalçasının kütləvi şəkildə toxunaraq satışa təqdim olunduğunu vurğuladı.

Tədbirin sonunda "Çələbi" xalçasının hanadan kəsimi oldu.

Qeyd edək ki, yeddi aya yaxın müddətdə ərsəyə gələn, eni 1.44, uzunluğu 1.80 metr olan xalçanın toxucuları Ulduz Nəcəfova və Nəsibə Səfərovadır.

Qeyd edək ki, Luvr Muzeyinin daimi ekspozisiyasında Azərbaycan xalçalarının üç qiymətli nümunəsi nümayiş olunur. Bunlar XVIII–XX əsrlərdə Qarabağda və Şirvanda toxunmuş "Çələbi", "Xanlıq" və "Əjdahalı" xalçalarıdır.

**Nurəddin MƏMMƏDLİ**

# "Ən yaxşı təqdimat"

Moskva şəhərində 7-9 sentyabrda keçirilən "Otdıx – Leisure" beynəlxalq sərgi və forumunda Azərbaycanın stendi mükafata layiq görülüb.

Turizm potensialını sərgiləyən digər iştirakçı ölkələr arasında seçilmiş Azərbaycan stendinə "Ən yaxşı təqdimat" nominasiyası üzrə mükafat təqdim olunub.

Xatırladaq ki, 27-ci dəfə təşkil olunan forum-sərgidə ölkəmizdən "Azərbaycan Hava Yolları" QSC (AZAL), Azərbaycan Hotel Assosiasiyası, Naxçıvan Turizm Departamentinin nümayəndələri, eləcə də 11 yerli turizm şirkəti iştirak edib.




Forum çərçivəsində "Azərbaycanın turizm imkanları və yeni marşrutların inkişafı" mövzusunda xüsusi sessiya keçirilib.

Tədbir çərçivəsində 40 müxtəlif mövzulu sessiyada 15 ölkədən 200-dən çox spiker çıxış edib.

# Qazaxıstan Məclisinin nümayəndə heyəti Şuşaya səfər edib

Ölkəmizə səfər edən Qazaxıstan Parlamentinin aşağı palatası – Məclisin Beynəlxalq əlaqələr, müdafiə və təhlükəsizlik komitəsinin sədri Aygul Kuspanın başçılıq etdiyi nümayəndə heyəti sentyabrın 12-də Şuşa şəhərində olub.



Nümayəndə heyətini Milli Məclis sədrinin müavini, Azərbaycan-Qazaxıstan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Adil Əliyev və Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov müşayiət ediblər.

Şuşada qonaqlar Qala divarları, Molla Pənah Vaqifin məqbərəsi, Yuxarı Gövhər ağa məscidi ilə tanış olub, Bülbülün Ev-Muzeyinə, Xalça Muzeyinə baş çəkib, Cıdır düzündə və İsa bulağında olublar. Məlumat verilib ki, 2020-ci il Vətən müharibəsində işğaldan azad edilən Şuşa şəhərinin tarixi-mədəni irsi Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın birbaşa nəzarətləri altında bərpa edilir.

Yolüstü Füzuli şəhərinə də gələn Qazaxıstan nümayəndə heyəti yeni inşa edilən aeroportla tanış olublar.

# Quba Soyqırımı Memorial Kompleksində beynəlxalq simpozium

Sentyabrın 10-11-də Quba Soyqırımı Memorial Kompleksində "XX əsr türk-müsəlman soyqırımları. Bakının Qafqaz İslam Ordusu tərəfindən qurtuluşundan Qarabağ Zəfərinə doğru Azərbaycan-Türkiyə münasibətləri" mövzusunda simpozium keçirilib.





Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti, Quba Soyqırımı Memorial Kompleksi və Azərbaycan Dövlət Pedaqoji Universiteti (ADPU) Ümumi tarix və tarixin tədrisi texnologiyası kafedrasının birgə təşkil etdiyi tədbirə Azərbaycan, Türkiyə və Rusiyadan 50-dək alim və tədqiqatçı qatılıb.

Simpozium iştirakçıları əvvəlcə Quba Soyqırımı Memorial Kompleksində soyqırımı qurbanlarının xatirəsinə ucaldılan abidənin önünə tər çiçək dəstələri düzüblər. Sonra kompleksin muzeyində simpoziumun plenar iclası öz işinə başlayıb.

Quba Soyqırımı Memorial Kompleksinin direktoru, tarix üzrə fəlsəfə doktoru Rəxşəndə Bayramova qeyd edib ki, simpoziumun əsas məqsədi regionda elm və tarixin inkişafına dəstək olmaq, XX əsr soyqırımı həqiqətlərini bir daha araşdırmaq, Azərbaycan Xalq Cümhuriyyəti və Türkiyə-Azərbaycan dostluğunun tarixi, 44 günlük Vətən müharibəsində əldə etdiyimiz tarixi Zəfərimizi dünya ictimaiyyətinə çatdırmaq, bu sahədə araşdırma aparan alim və tədqiqatçıları bir araya gətirməkdir.

İclasda Quba Rayon İcra Hakimiyyətinin başçısı Ziyəddin Əliyev, Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəisi Azad Cəfərli, Türkiyə Nazirlər Kabineti yanında Dövlət Arxivləri Baş İdarəsinin rəisi Uğur Ünal, Altınbaş Universitetinin rektoru, professor Çağrı Erhan, Rusiyanın Tarix, İqtisadiyyat və Hüquq Elmi Tədqiqat İnstitutunun prezidenti, professor İqor Turis, ADPU-nun rektoru, tarix elmləri doktoru, professor Cəfər Cəfərov və kafedra müdiri, tarix elmləri doktoru Sevinc Əliyeva çıxış ediblər.

Daha sonra simpozium alim və tədqiqatçıların məruzələri ilə davam etdirilib.

Beynəlxalq tədbirin iştirakçıları Quba rayonunun görməli yerləri ilə də tanış olublar.

## Bölgələrdən xəbərlər

# "Nizami Gəncəvi İli" çərçivəsində



Ağdaş Regional Mədəniyyət İdarəsi Göyçay rayon MKS-nin 9 saylı Mırtı kənd kitabxana filialının təşkilatçılığı ilə "Nizami Gəncəvi İli" münasibətilə "açıq kitabxana" təşkil edilib.

Sabirabad Regional Mədəniyyət İdarəsi Sabirabad rayon Heydər Əliyev Mərkəzində YAP Gənclər Birliyinin təşkilatçılığı ilə Nizami Gəncəvinin 880 illiyinə həsr olunmuş Ümumrespublika "Xəmsə" intellektual festivalının II regional turu keçirilib. Müsabiqədə Sabirabad, Saatlı, Hacıqabul, İmişli, Beyləqan, Neftçala, Salyan, Şirvan, o cümlədən Xocavənd və Füzuli bölgələrini təmsil edən komandalar iştirak edib.



Lənkəran Regional Mədəniyyət İdarəsi Lənkəran şəhər Heydər Əliyev Mərkəzində tanınmış pedaqoq və ədəbiyyatşünas Məmməd Ələkbərovun "Nizami Gəncəvi və Azərbaycan xalq yaradıcılığı" monoqrafiyasının təqdimatı keçirilib. Mərhum alimin namizədlik dissertasiyası AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun dosenti Əzizağa Nəcəfzadə tərəfindən kitab halında nəşr etdirilib. Tədbirdə Nizami yaradıcılığına həsr olunmuş ədəbi-bədii kompozisiya da təqdim edilib. Sonda Heydər Əliyev Mərkəzinin rəsm studiyasının istedadlı üzvlərinin "Nizami Gəncəvi əsərləri uşaqların gözü ilə" adlı sərgisinə baxış keçirilib.



Gəncə Regional Mədəniyyət İdarəsinin təşəbbüsü ilə "Nizami məqbərəsinin tarixi və taleyi" mövzusunda onlayn tədbir keçirilib. Tədbirdə Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin sektor müdiri Mahir Qəhrəmanov, AMEA Gəncə Regional Bölməsinin şöbə müdiri, professor Xəlil Yusifli, Türkiyənin Səlcuq Universitetinin professoru Ali Temizel və Nizami Gəncəvi Muzeyinin direktor əvəzi Könül Süleymanova çıxış ediblər. Gəncə şəhər Mədəniyyət Mərkəzində isə "Nizami poeziyası Azərbaycan şeirinin ən uca zirvəsidir" mövzusunda dəyirmi masa keçirilib. Tədbirin sonunda iştirakçılar dahi şairə həsr olunan sərgiyə baxıblar.

Hazırladı: N.MƏMMƏDLİ

# Mədəniyyət ocaqlarında müxtəlif tədbirlər



Masallı Regional Mədəniyyət İdarəsi R.Tağıyev adına Masallı Rayon Tarix-Diyarşünaslıq Muzeyi, Masallı Rayon Gənclər və İdman İdarəsi və rayon "Gənclər evi" sosial xidmət müəssisəsinin birgə təşkilatçılığı ilə "Tariximizi öyrənək və təbliğ edək" mövzusunda Tarix-Diyarşünaslıq Muzeyinə ekskursiya təşkil edilib.

Kürdəmir Regional Mədəniyyət İdarəsinin rəisi Faiq Xudanlı Milli Məclisin deputatı Əminə Ağazadə ilə görüşüb. Söhbət zamanı rayonun mədəniyyət müəssisələrində həyata keçirilən layihələr, Vətən müharibəsi şəhidlərinin xatirəsinin əbədiləşdirilməsi və s. məsələlərdən bəhs edilib.

Xaçmaz Regional Mədəniyyət İdarəsi Quba rayon MKS-nin Girdah kənd kitabxana filialı tərəfindən açıq səma altında "mütaliə günü" təşkil edilib. MKS-nin Söhüb kənd kitabxana filialı isə "Sehrli uşaq dünyası" başlığı altında tədbir keçirib. Quba rayon Zərdabi qəsəbə kitabxanası Folklor evi ilə birlikdə yerli şair Mövlud Ağammədinin 60 illiyi ilə əlaqədar tədbir təşkil edib.

Şəki Regional Mədəniyyət İdarəsi Zaqatala rayon Heydər Əliyev Mərkəzində gənc rəssam Nigar Məmmədovanın sərgisi keçirilib. Qax rayon Ağçay kənd kitabxanasında



"Yay məktəbi" layihəsi çərçivəsində Nizami Gəncəvinin əsərləri əsasında çəkilən "Xeyir və Şər", "Fitnə" və "Kərpickəsən kişinin hekayəsi" cizgi filmləri nümayiş etdirilib.



İsmayıllı Regional Mədəniyyət İdarəsi Şamaxı rayon Mirzə Ələkbər Sabirin Ev-Muzeyində yazıçı Novruz Gəncəlinin (1921-1995) 100 illiyi ilə əlaqədar "Bəşəriyyətə səslənən şair" mövzusunda dəyirmi masa keçirilib.

Ağcabədi Regional Mədəniyyət İdarəsi Ağcabədi rayon Heydər Əliyev Mərkəzində dahi bəstəkar Üzeyir Hacıbəylinin anadan olmasının 136 illiyi və 18 sentyabr – Milli Musiqi Günü münasibətilə "Şərqdən doğan opera günəşi" adlı sərgi təşkil edilib.

Lənkəran Regional Mədəniyyət İdarəsi O.Kazımi adına Astara rayon Uşaq musiqi məktəbinin müəllimi Şamil Bayramovun təqaüdə yola salınması münasibətilə tədbir keçirilib. Ş.Bayramova regional idarənin fəxri fərmanı təqdim edilib.

# Vətənin qəhrəmanları unudulmur



Biləsuvar Regional Mədəniyyət İdarəsinin əhatə etdiyi Salyan rayon mədəniyyət müəssisələrinin rəhbərləri və əməkdaşları Vətən müharibəsi şəhidi Sabir Salahovun ailəsi ilə görüşüblər.

Lənkəran Regional Mədəniyyət İdarəsi Lerik Dövlət Rəsm Qalereyası və Lerik rayon Heydər Əliyev Mərkəzinin birgə təşkilatçılığı ilə Bakı şəhəri şəhid Arif Vəliyev adına 258 saylı tam orta məktəbin 10-cu sinif şagirdi Ayxan İsayevin əl işlərindən ibarət "Zəfər çələngi" adlı sərgisi nümayiş olunub.

Ağdaş Regional Mədəniyyət İdarəsi Zərdab rayon Mərkəzi Kitabxanasının təşkilatçılığı ilə "Qarabağ Azərbaycandır!" adlı "açıq kitabxana" təşkil edilib.

Ağstafa Regional Mədəniyyət İdarəsi Ağstafa rayon MKS-nin əməkdaşları rayonun Köçəsgər kəndində Tovuz döyüşlərinin (2020, iyul) şəhidləri, general-mayor, Milli Qəhrəman Polad Həşimovun və gizir Yaşar Babayevin xatirəsinə inşa olunan bulaq-abidə kompleksini, Ağstafa Dövlət Rəsm Qalereyasının əməkdaşları və rəsm dərnəyinin üzvləri isə Dağ Kəsəmən kəndində "Xarıbülbül" abidəsini və "Şəhidlər" abidə kompleksini ziyarət ediblər.



Bərdə Regional Mədəniyyət İdarəsi Mingəçevir şəhər Fəxrəddin Qasımov adına Uşaq incəsənət məktəbinin müəllimləri Vətən müharibəsi şəhidi Oruc Nəcəflinin adına xatirə bulağının açılışında iştirak ediblər.



Sabirabad Regional Mədəniyyət İdarəsi Şirvan Dövlət Rəsm Qalereyasının direktoru Çinarə Vəliyeva, Şirvan şəhər Heydər Əliyev Mərkəzi, şəhər MKS-nin 6 saylı kitabxana filialı və Mədəniyyət Mərkəzinin Bayramlı qəsəbə klubunun əməkdaşları Vətən müharibəsi şəhidi Asif Qəribovun vaxtilə yaşadığı evin önündə yaradılan xatirə lövhəsinin və bulağın açılış mərasiminə qatılıblar.

Şəmkir Regional Mədəniyyət İdarəsinin təşkilatçılığı ilə Şəmkir şəhər parkında Vətən müharibəsində Qələbənin ildönümünə həsr olunmuş "Xalqın Zəfəri" adlı incəsənət sərgisi təşkil edilib. Sərgidə regional idarənin əhatə etdiyi Şəmkir, Daşkəsən, Göygöl və Gədəbəy rayonlarından istedadlı gənclərin əl işləri, şəhid qəhrəmanlarımızın portretləri və müxtəlif mövzularda rəsm əsərləri nümayiş olunub.

# Orta Asiya respublikalarının media nümayəndələri və ictimai fəallar Xaçmaz və Qubada

Qazaxıstan, Özbəkistan və Qırğızıstandan ictimai fəallar və media nümayəndələri ölkəmizə səfər çərçivəsində Xaçmaz və Quba rayonlarında olublar.



Qonaqlar əvvəlcə Xaçmaz şəhərindəki Heydər Əliyev Mərkəzi ilə tanış olublar. Daha sonra Azərbaycanın görkəmli şair və yazıçılarının, mədəniyyət və incəsənət xadimlərinin büstü qoyulan, açıq səma altında "Şəxsiyyətlər muzeyi" ilə tanışlıq olub. Ekskursiya iştirakçılarına 2006-cı ildə yaradılan muzey-park haqqında məlumat verilib.

İctimai fəallar və media nümayəndələri 2013-cü ildə Prezident İlham Əliyevin iştirakı ilə istifadəyə verilən Xaçmaz Rayon Tarix-Diyarşünaslıq Muzeyini də ziyarət ediblər. Diqqətə çatdırılıb ki, muzeydə həm ölkəmizin, həm də Xaçmaz rayonunun tarixini əks etdirən və turistlər üçün maraq doğuran çoxlu sayda eksponat var.

Daha sonra Quba rayonuna gələn qonaqlar əvvəlcə Quba Soyqırımı Memorial Kompleksini ziyarət ediblər. Onlara 1918-ci ildə erməni quldur dəstələrinin ölkəmizin müxtəlif yerlərində, o cümlədən Qubada törətdikləri kütləvi qırğınlar haqqında ətraflı məlumat verilib. Bildirilib ki, Heydər Əliyev Fondunun dəstəyi ilə yaradılan Quba Soyqırımı Memorial Kompleksi 2013-cü il sentyabrın 18-də açılıb. Diqqətə çatdırılıb ki, Quba soyqırımı məzarlığı 2007-ci ildə ərazidə torpaq işləri görülərkən aşkarlanıb.

Orta Asiya ölkələrindən olan ictimai fəallar və media nümayəndələri Azərbaycan-Türkiyə Qardaşlıq parkı və dağ yəhudilərinin yığcam yaşadıqları Qırmızı Qəsəbə ilə də tanış olublar.

# İllərin ayrılığından sonra doğma yurd yerlərində

İşğaldan azad olunmuş torpaqlarda bərpa və quruculuq işləri, ərazilərin minalardan təmizlənməsi prosesi ilə yanaşı, otuz ilə yaxın həsrətlə yaşayan insanların doğma yurd yerlərinə səfərlərinə də şərait yaradılır. Hələlik məlum çətinliklər, təhlükəsizlik məsələləri nəzərə alınaraq ayrı-ayrı rayonlara qrup şəklində səfərlər təşkil edilir.

Sentyabrın 12-də Şuşa sakinlərinin daha bir qrupu illərin ayrılığından sonra doğma şəhərə ayaq basıb. Səfər Prezidentin Şuşa Rayonunda Xüsusi Nümayəndəliyi və Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin birgə təşkilatçılığı ilə reallaşıb.

Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi İdarə Heyətinin sədri Məftun Abbasov şuşalıları salamlayaraq bildirib ki, 44 günlük Vətən müharibəsində işğaldan azad edilən qədim şəhərimizdə sakinlərin layiqli, gözəl həyat yaşamaları üçün hər bir şərait yaradılacaq: "Şuşa tezliklə dirçələcək və inkişaf edəcək. Böyük qayıdış başlayır, nəhəng quruculuq işləri sürətlə davam edir".

Daha sonra Şuşa sakinləri Cıdır düzü, Qala divarları, Natəvan bulağı, Yuxarı və Aşağı Gövhər ağa məscidləri, Şuşanın mərkəzi meydanında Üzeyir Hacıbəyli, Xurşudbanu Natəvan və Bülbülün güllələnmiş heykəllərini ziyarət ediblər.

***

Sentyabrın 11-12-də Azərbaycanda fəaliyyət göstərən qeyri-hökumət təşkilatları (QHT) təmsilçilərinin də böyük bir qrupu Şuşa səfərində olub.

Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin təşkilatçılığı ilə təşkil olunan səfərdə ümumilikdə 300-dək QHT təmsilçisi iştirak edib. Prezident Administrasiyasının məsul əməkdaşı, QHT-lərə Dövlət Dəstəyi Agentliyi Müşahidə Şurasının sədr müavini Vüsal Quliyev Şuşada aparılan quruculuq işləri barədə nümayəndə heyətinə məlumat verib.

QHT təmsilçiləri tarixi məkanlara baş çəkib, ermənilər tərəfindən 30 ilə yaxın müddət ərzində vəhşiliklə dağıdılmış mədəni abidələr, inzibati və yaşayış binalarına baxış keçirib, aparılan təmir-bərpa işləri ilə yaxından tanış olublar.

***

Ötən həftəsonu Ağdam sakinlərinin də işğaldan azad olunmuş torpağa növbəti səfəri təşkil olunub. Ağdam rayonunun işğaldan azad edilmiş hissəsində Azərbaycan Respublikası Prezidentinin Xüsusi Nümayəndəliyinin təşkil etdiyi səfər zamanı sakinlər doğma şəhərin otuzillik işğaldan sonrakı xarabalıqları – Dram teatrının və Çörək muzeyinin qalıqları ilə tanış olub, Ağdam Cümə məscidini, İmarət kompleksi, Qiyaslı məscidi və Şahbulaq qalasını ziyarət ediblər.

№69 (1846)
15 sentyabr 2021
www.medeniyyet.az



# 15 sentyabr Azərbaycan-Türkiyə qardaşlığının rəmzidir

*əvvəli səh. 1-də*



1918-ci il mayın 28-də Azərbaycanın müstəqilliyi Tiflisdə elan edildi və Xalq Cümhuriyyəti quruldu. Azərbaycan dövlətinin qurulması üçün lazım olan ilkin şərtlər – ərazi və əhali mövcud idi, hökumət də quruldu. Gəncə şəhəri Azərbaycanın müvəqqəti paytaxtı elan edildi. Lakin ölkənin baş şəhəri olan Bakı yadellilərin əlində idi. Azərbaycan dövlətinin şəhəri azad etmək üçün kifayət qədər qüvvəsi olmadığından xarici yardıma ehtiyac duyulurdu. Osmanlı dövləti iyunun 4-də Batumda imzaladığı müqavilə ilə Azərbaycana yardım etməyi üzərinə təəhhüd (öhdəlik) olaraq götürmüşdü. Azərbaycan yardım üçün müraciət etdi. Osmanlının hərbi naziri Ənvər paşanın qardaşı Nuru paşanın komandanlığı altında Qafqaz hərəkatı başladı. Cərgələrini yerli əhalidən doldurmaqdan və Bakı şəhəri azad edildikdən sonra problem yaranmamasından ötrü ordu "Qafqaz İslam Ordusu" adlandırıldı. Hərəkatın hüquqi-siyasi təməlini Batum müqaviləsi təşkil edirdi. Bu hərəkatın milli-mənəvi əsasları da var idi. Dünya türklüyünün və islamın mərkəzi olan Osmanlı dövləti Cənubi Qafqazda milli və dini əlamətlərə görə öldürülən türk və müsəlmanlara yardım etməli idi. Türklər və müsəlmanlar Osmanlı dövlətinə nicat gözü olaraq baxırdılar. Osmanlı ilə dil, din, mədəniyyət baxımından bir olan Cənubi Qafqazın türk və müsəlman əhalisi erməni-daşnak və bolşevik dəstələrinin soyqırımına uğramışdılar. Özü nə qədər ağır vəziyyətdə olsa da, onlara yardım etmək Osmanlının borcu idi. Qeyd etmək lazımdır ki, buna qədər çoxlu azərbaycanlı gənc Balkan savaşlarında və Çanaqqala döyüşlərində türk qardaşlarına yardım etmək üçün çarizm orqanlarından xəlvəti olaraq getmişdilər. Bakı hərəkatının hərbi-strateji və iqtisadi səbəbləri də var idi. Dünyanın nəhəng dövlətlərindən biri olan Osmanlının təbii olaraq bu regionda geniş maraqları mövcud idi. Azərbaycan Cənubi Qafqazın açar ölkəsi hesab edilirdi. Bakıya sahib olan təkcə Azərbaycana və Cənubi Qafqaza deyil, Xəzərə nəzarət qazanırdı. Xəzər üzərində nəzarət Şimali Qafqaza nəzarət, Orta Asiyaya, oradan da Hindistana gedən yola çıxmaq, Orta Asiyaya sahib olmaq isə dünyanın ürəyi olan Avrasiyaya yiyələnmək demək idi. Dünyanın ürəyinə gedən yol qızıl körpü olan Azərbaycandan, Bakıdan keçirdi.

Bakı zəngin neft mənbəyi idi. Dünya müharibəsinin son mərhələsində Yaxın və Orta Şərqdə, Qafqazda iki neft mənbəyi – Mosul və Bakı uğrunda müharibə gedirdi. Müharibə həm də neft savaşı idi. Osmanlı dövlətinin bu strateji yola, mövqelərə və neft mənbəyinə yiyələnməsi üçün milli və mənəvi baxımdan problemi mövcud deyildi. Cənubi Qafqazda yaşayan təqribən 6 milyon nəfər əhalinin 3 milyon nəfəri türk və müsəlman idi.

Qafqaz İslam Ordusunun hücumları qarşısında tab gətirə bilməyən Bakıdakı sovet hakimiyyəti iyulun 31-də devrildi. Onun yerində xarici yardımlarla qurulan və əslində koalisiyalı hökumət olan Sentrokaspi diktaturası general Leonel Denstervil başda olmaqla ingilis qüvvələrini Bakıya dəvət etdi. Bakı uğrunda təkcə amansız döyüşlər deyil, eyni zamanda, diplomatik-siyasi mübarizə gedirdi. Hər bir dövlət əlverişli coğrafi-siyasi mövqeyi və zəngin neft mənbələri olan Azərbaycana yiyələnməyə çalışırdı.

Qafqaz İslam Ordusunun Bakıya yürüşünün qarşısını almaq üçün hərəkətə keçən bolşevik Rusiyası müharibədə Osmanlının müttəfiqi olan Almaniya ilə avqustun 27-də bir müqavilə imzaladı. Müqaviləyə görə, Almaniya Bakı neftindən alacağı bəlli pay müqabilində Osmanlı qoşunlarının Kür çayını keçməməsi üçün öhdəlik götürdü. Bu göstərdi ki, Bakı məsələsində Almaniya Osmanlının müttəfiqi deyildi. Lakin oynanılan oyunlar Qafqaz İslam Ordusunun yürüşünü dayandıra bilmədi. İqtisadi baxımdan ətraf ərazilərdən asılı olan Bakı mühasirəyə alındıqdan sonra şəhərin ərzaq təchizatı kəsildi və ağır vəziyyət yarandı. Türk topçuları şəhəri elə dəqiqliklə atəşə tuturdular ki, tarixi-memarlıq binaları dağıdılmadı. İngilislər və Sentrokaspi diktaturası türk hücumları qarşısında şəhəri qoyub qaçdılar. Bakıya gələrkən ermənilərə arxalanan L.Denstervil onları qorxaqlıqla təqsirləndirdi. Bakı şəhəri sentyabrın 15-də azad edildi. Sentyabrın 17-də isə Azərbaycan hökuməti müvəqqəti paytaxt olan Gəncədən Bakıya köçdü. Azərbaycan dövləti milli-mənəvi, elm və mədəniyyət mərkəzinə qovuşdu. Şəhərin azad edilməsi ilə "başla bədən birləşdi".

Bakının azad edilməsi əhəmiyyətinə görə Cümhuriyyətin elan edilməsindən sonra ikinci böyük tarixi hadisə oldu. Şəhərin azad edilməsi Azərbaycan və türk silah qardaşlığının rəmzi idi. Qardaşların birliyi Bakıya dair iyrənc planları darmadağın etdi. Bu hadisə göstərdi ki, Azərbaycan və Türkiyə birgə hərəkət etdikdə heç kim onları dayandıra bilməz. Milli ruhu yüksələn azərbaycanlılar Azərbaycanın şimal torpaqları çarizm tərəfindən işğal edildikdən sonrakı bütün dövrdə ilk dəfə olaraq Bakı küçələrində başlarını dik tutaraq, özlərinə güvənərək gəzməyə başladılar. Qardaşlıq yardımları sonrakı illərdə də davam etdirildi. İşğal edilib sovetləşdirildikdən sonra Azərbaycan xalqı türk qardaşlarının istiqlal savaşına yardımlar etdi. Sovet dövründə ağır şərtlər altında yaşamasına, 30-cu illərin sonlarından 50-ci illərin ortalarınadək sovet-türk münasibətlərində gərginliyin olmasına baxmayaraq, Azərbaycan xalqı türk əsgərlərinin məzarlarını qoruyub saxladı, dağılmağa qoymadı, ətrafına çiçəklər, ağaclar əkdi, onları ziyarətgaha çevirdi...

Bu gün 1918-ci il 31 Mart soyqırımı qurbanlarının, 1990-cı il 20 Yanvar, Ermənistanın təcavüzünə qarşı ölkəmizin ərazi bütövlüyü uğrunda aparılan müharibədə həlak olan şəhidlərimizin dəfn olunduğu və hər bir azərbaycanlı üçün müqəddəs olan Şəhidlər xiyabanında Qafqaz İslam Ordusu döyüşçülərinin xatirəsinə Bakı Türk Şəhidliyi abidəsi də ucalır. Bu, təkcə ziyarət edilərək əklil qoyulan bir abidə deyil, qanı torpaqlarımızda bir-birinə qarışmış Azərbaycan və Türkiyə xalqlarının qardaşlığının, əbədi birliyinin rəmzidir. Nəhayət, 44 günlük müharibədə qardaş Türkiyə Azərbaycanın haqq işini birmənalı olaraq diplomatik-siyasi və mənəvi-psixoloji baxımdan müdafiə etdi. Bu il ilk dəfə olaraq biz sentyabrın 15-ni Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı, Prezident İlham Əliyevin rəhbərliyi ilə şanlı Ordumuzun ərazilərimizi Ermənistan işğalından azad etmiş olduğu şəraitdə qalib millət və qalib dövlət kimi qeyd edirik.

Dövlət başçıları İlham Əliyev və Rəcəb Tayyib Ərdoğanın imzaladıqları Şuşa Bəyannaməsi münasibətləri yeni səviyyəyə çıxardı. Kökləri dərin olan qardaşlığımız əbədidir. Biz birlikdə güclüyük!

**Musa QASIMLI**
**Milli Məclisin deputatı, professor**

# XTQ-nin "Sarı komutan"ı

Belə çağırılmaqları onların daha çox xoşlarına gəlib, daha səmimi, daha dostyana qəbul ediblər. Xüsusilə "Yaşma" cəngavərlərinin, Xüsusi Təyinatlı Qüvvələrdə (XTQ) xidmət edən, demək olar ki, bütün hərbi qulluqçularımızın özlərinə aid bir şifrəli adları, bir də ləqəbləri olurmuş. Bunu məhz həmin igidlərin sırasında xidmət edib qazi olan (yalnız xidməti bitirənlər özləri və şəhid döyüş yoldaşları haqqında danışırlar) bir neçə qəhrəman döyüşçümüzdən eşitmişəm. Ona görə də məhz həm döyüş yoldaşlarının, həm də özlərinin sevdiyi kimi xitab edək onlara, bir az da şad olsunlar, bir az da əbədiyaşarlıqlarının fərqinə varsınlar deyə...



Vətəni bölünməz, azad edib, bizləri özlərinə əbədi minnətdar qoyan igidlərimizdən biri, XTQ-nin zabiti, Vətən müharibəsinin şəhid kapitanı Kamil Şirinov haqqında danışarkən hər kəs eyni təyini işlədir: adı kimi kamil, fövqəladə şücaətli.

Döyüşə atılanda nərə çəkərək "Haydı, igidlərim!" deyən qrup komandiri əsgərlərinin ən yaxın dostu, həmdərdi, həyatı, insanları, yaşamağı, yaşatmağı hamıdan bəlkə də daha çox sevən Azərbaycan oğlu idi Kamil. "Yaşamağı hamıdan çox sevən" fikrimin ciddi bir əsası var. Kamil şəhidlik libasını özünə heç vaxt yaraşdırmayıb. Doğrudur, bu yolu seçəndə nə vaxtsa ölümlə, ölümü dada-dada ölümsüzlüklə rastlaşacağını bilib. Amma buna rəğmən, həyatdan daha bərk yapışıb, daha ümidli olub. Hər dəfə gələcək haqqında upuzun planlar qurub, şipşirin arzular edib. Məsələn, hələ təzə-təzə ayaq açan oğlunun futbolçu olacağının, xarici ölkələrin tanınmış komandalarında top qovacağının, milyonların onu göstərərək "məşhur futbolçu Türkayın atasıdır" sözlərini eşidəcəyinin xoş xəyalını qurub.

İşinin, xidmət etdiyi hərbi birləşmənin fəaliyyətinin məxfiliyindənmi, yoxsa özü haqqında başqalarının nə danışacağı ilə maraqlandığındanmı "İstəyirəm bizi də görsünlər, tanısınlar, bilsinlər" deyərmiş. Ara-sıra ailə üzvlərinə, dostlarına "Sonra, məndən sonra bu şəklimi paylaşın" tapşırığını verər və üzlərdə yaranan ani kədəri həmən silmək, yox etmək üçün söhbəti zarafata çevirərmiş.

Hə, kamil insan, cəsur döyüşçü, Sarı komutan, indi səni bütün Azərbaycan tanıyır, sevir və xatırlayır...

Kamil Əliş oğlu Şirinov 9 aprel 1991-ci ildə Salyan rayonunun Çuxanlı kəndində anadan olub. Ata-anasının böyük övladı, ilk arzusu olan Kamil 1997-ci ildə Çuxanlı kəndində şəhid Ziyad Həmidov adına tam orta məktəbdə təhsilə başlayır. Uşaqlıqdan təhsili, sürətli düşünmək bacarığı və cəsarəti ilə seçilir. O, artıq öz yolunu, gələcək taleyini müəyyən etmişdi: zabit olacaqdı. Təbii ki, bu qərarında hərbçi, Birinci Qarabağ müharibəsi iştirakçısı atasının da rolu az deyildi. 2006-cı ildə 9-cu sinfi bitirib Cəmşid Naxçıvanski adına Hərbi Liseyə qəbul olunur, ilk arzusunu reallaşdırır.

Təhsilini başa vurub 2009-cu ildə Heydər Əliyev adına Ali Hərbi Məktəbə daxil olur. 2013-cü ildə akademiyada təhsilini uğurla bitirib "N" saylı hərbi hissədə xidməti fəaliyyətinə başlayır. Xüsusi Təyinatlı Qüvvələrdə xidmət etməyi qarşısına məqsəd qoyan Kamil Şirinov çox keçmir istəyinə nail olur. XTQ-nin sıralarında böyük qürur və uğurla xidmət edir. Cəsur komandir qüsursuz hərbi xidmətinə görə bir neçə dəfə komandanlıq tərəfindən təltif olunur.

2016-cı ilin Aprel döyüşlərində göstərdiyi qəhrəmanlıqlara görə Silahlı Qüvvələrin Ali Baş Komandanı, Prezident İlham Əliyev şəxsən əlini sıxıb və "Hərbi xidmətdə fərqlənməyə görə" medalını ona təqdim edib.

Qeyd edək ki, o, bir neçə dəfə Türkiyə və Pakistanda təşkil olunmuş hərbi təlimlərə də qatılıb, sınaqlardan uğurla keçdiyinə görə təltif edilib.

Kamil Şirinov canından çox sevdiyi vətən torpaqlarının bütövlüyü uğrunda 2020-ci ilin 27 sentyabrında başlanan İkinci Qarabağ müharibəsində ön sırada yerini alır. Sentyabrın 29-da Füzulinin Qaraxanbəyli kəndi istiqamətində gedən şiddətli döyüş zamanı yanındakı yaralı əsgərinə tez-tez "Seyidbala, qorxma, möhkəm ol, az qalıb, səni burdan çıxaracağam!" sözünü verir və "Çətini dişləri sıxmaqdı, ondan sonrası düzələr" deyib atış mövqeyinə qayıdan zaman düşmənin snayper gülləsinə tuş gəlir. Bir göz qırpımında əlini sinəsinə atır, yaxalığındakı bayrağımızı qopararaq döyüş yoldaşına uzadır. "Bunu Türkaya verərsiz" deyir və gözlərini əbədi yumur.

Bu gün Kamilin qanı olan həmin bayraq Şirinovlar ailəsinin qürur mənbəyinə, təsəllisinə, son xatirəsinə çevrilib. 10 ildən artıq Silahlı Qüvvələrimizdə qüsursuz xidmət göstərən, buna görə də dəfələrlə fəxri fərman, döş nişanları, medallarla təltif olunan qəhrəmanın ən böyük mükafatı qəlblərdəki əbədi yeri, Kamil zirvəsidir.

Dövlət başçısının sərəncamları ilə Kamil Şirinov ölümündən sonra "Qarabağ" ordeni və "Vətən uğrunda" medalı ilə təltif edilib.

Şəhid kapitan yaxşı döyüşçü olmaqla yanaşı, həm də mükəmməl ailə başçısı, qayğıkeş ata idi. Yolunu, adını yaşadacaq iki oğlu Vətənə əmanət qalıb.

**HƏMİDƏ**

# Qədri bilinməyən Qədir...

## Bahadur Əliyev həyatının mənasını kino sənətində tapmışdı

Bu başlığı niyə seçdiyimi aktyor-insan, ekran-həyat təzadında izah edim: "Ulduz" filminin kolxoz sədri Qədirin də, onu ekrandan bizə "Him-cim qanmırsan?"la sevdirən aktyor Bahadur Əliyevin də qədri bilinmədi.

Bunu təkcə 70-dən artıq kinofilmdə üzündən səsinə iştirakına, yaxud "Dublyajın vuran ürəyi"dir deyilməsinə rəğmən...

O, sadəcə, mimikası, hərəkət dili, baxışından şivəsinə qədər mütləq bir fərqliliyi ilə tamaşaçını cəlb edən, ümumi kollajda dəqiq görünən aktyor idi. Adının xatırlanmadığı yerlərdə rolları ilə çağırılan, qəhrəmanları ilə tanınan bir Bahadur Əliyev var idi. Ömrünü sənətə həsr edən və elə həyatı da film kadrları kimi montajlı, səsləndirməli Bahadur Əliyev.

O, həyatının mənasını kinoda tapan və kino ilə nəfəs alan nadir kino adamlarından idi. Filmlərə çəkilməklə, ekranın görünən tərəfində olmaqla kifayətlənmir, onun hər əzabına, hər nazına qatlanıb kino adlı sevgisinə heç vaxt xəyanət etmirdi.

Bu mənada Bahadur Əliyevin adı təkcə filmlərdə çəkilmir, həm də rejissor assistenti, II rejissor, film direktoru, mühəndis, inzibatçı kimi də titrlərdə görünürdü. 69 illik ömrünün 39 ilini milli kino sənətinin inkişafına həsr etmişdi.

Bahadur Atabala oğlu Əliyev 1933-cü il fevralın 24-də Masallı rayonunun Sığıncaq kəndində dünyaya göz açıb. Uşaqlıqdan özünəməxsus keyfiyyətləri olduğunu, teatr, səhnə marağını özü də duymuşdu. Gələcək həyat, sənət yolunu da buna görə erkəndən özü təyin etmişdi: aktyor olacaqdı.

Odur ki, orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Teatr İnstitutunun (indiki ADMİU) Kino və dram aktyorluğu fakültəsinə daxil olur. İnstitut həyatı, görkəmli sənətkarlardan aktyorluq sənətinin sirlərinə yiyələnməsi, kurs tamaşalarında rol alması tələbə-aktyoru daha da həvəsləndirir. 1956-cı ildə institutu bitirən gənc aktyor təyinatla "Bakı" kinostudiyasına göndərilir, rejissor assistenti vəzifəsinə işə qəbul edilir. Müxtəlif filmlərin çəkiliş prosesində özünəməxsus manevrlər edən, aktyorlarla obrazların dilində danışan gənc rejissor assistenti aktyor vəzifəsinə irəli çəkilir. 1957−1959-cu illərdə ekranlaşdırılan "Kölgələr sürünür", "Bir məhəllədən iki nəfər", "Onun böyük ürəyi" və "Onu bağışlamaq olarmı?" filmlərində epizodik rollarda çıxış edir. Kiçik, bəzən heç adı olmayan, kütləvi səhnələrdə görünsə də, böyük arzularla yaşayır, yeni kinofilmlərin, məşhur qəhrəmanlarının xəyallarını qururdu.



Amma arzular bu dəfə yarı yolda qalır. Böyük həvəslə işlədiyi bir vaxtda – 1959-cu ildə "kinostudiyada işin həcmi azaldığına görə" işdən azad olunur. Bundan sarsılmır, gənc ürəyi sızıldasa da, əsas məramından – özünü ifadə meydanı tapmaq istəyindən sapmır. Bakıdakı Lal-Karlar üçün Mədəniyyət evinə bədii rəhbər vəzifəsinə işə düzəlir. Ancaq kinostudiya ilə də əlaqəsini kəsmir, böyük ümidlərlə ora qayıdacağı günü gözləyir. Bu müddətdə "Əsl dost" filmində Fərmanın köməkçisi, balıqçı, "Qəribə əhvalat"da milis işçisi rollarını ifa edir.

1961-ci ildə yenidən "Azərbaycanfilm"ə qayıdan aktyor bu dəfə korrektor ştatına götürülür. 1961−1965-ci illərdə aktyor kimi "Telefonçu qız", "Əmək və qızılgül", "Romeo mənim qonşumdur" filmlərinə çəkilir, "Böyük dayaq"da komsomolçu, "Möcüzələr adası"nda neftçi, "Sehrli xalat"da xanın əsgəri rollarında çıxış edir.

Geniş tamaşaçı auditoriyası onu daha çox "Ulduz" kinofilmindən tanıyır. Bəstəkar Süleyman Ələsgərovun eyniadlı operettasının motivləri əsasında çəkilmiş ekran əsərinin sevilən qəhrəmanlarından biri də Qədirdir. Böyük tamaşaçı rəğbəti qazanmış bu filmdə teatr və kino sənətimizin nəhəngləri – Lütfəli Abdullayev, Nəsibə Zeynalova, Hacıbaba Bağırov, Bəşir Səfəroğlu, Siyavuş Aslan rol alıblar. "Ulduz"un bu ulduzları sırasında, sözsüz ki, Bahadur Əliyev də öz parlaqlığı ilə seçilə bildi.

Filmdə kolxoz sədri Qədirin obrazını yaradan aktyor şöhrətpərəst, özündənrazı qəhrəmanını sevə-sevə, həm də bütün çalarları ilə tamaşaçıya təqdim edə bilib. Buradakı məhəbbət, daha doğrusu, qarşılıqsız məhəbbət motivi də aktyorun ifa və ifadə tapıntıları ilə bənzərsizdir, baxımlıdır.

"Ulduz"un və onun yeni ulduzu Bahadur Əliyevin uğuruna rəğmən o, bu dəfə də umduğunu – yəni yeni filmlərdə əsas rolları yox, tam əksini bulur. Belə ki, 1965-ci ilin sonunda böyük inzibatçı vəzifəsinə keçirilir. Yenə də ruhdan düşmür, epizodik rollarla kifayətlənməli olduğunu anlayır. "Dağlarda döyüş", "Uşaqlığın son gecəsi", "Yenilməz batalyon" bədii, "Yun şal" bədii televiziya filmlərində çəkilir. "İstintaq davam edir" filmində kapitan Əliyev, "İyirmialtılar" tarixi-inqilabi filmində Bakı komissarlarının Azərbaycan xalqını xoş sabaha çıxaracağına inanan gənc fəhlə rollarında çıxış edir.

İnzibatçı kimi işinin öhdəsindən yaxşı gələn Bahadur Əliyev 1968-ci ildən kinostudiyanın dublyaj qrupu direktorunun müavini vəzifəsinə təyin olunur və 1973-cü ilə kimi bu vəzifəni icra edir. Beləcə, həm xarici və sovet filmlərinin Azərbaycan dilində səsləndirilməsində aktyor kimi iştirak edir, həm inzibatçı kimi dublyaj işini təşkil edir, həm də filmlərə çəkilir. Bu dövrdə ekranlaşdırılan "Axırıncı aşırım", "Bizim küçənin oğlanları", "Həyat bizi sınayır", "O qızı tapın" və s. kinolentlərdə onun da imzası var.

Aktyor ştatında olmadığı halda xeyli filmdə rol alan qəribə taleli aktyor, nəhayət ki, 1973-cü ildə kinoaktyor ştatına keçirilir. Ali kateqoriyalı kinoaktyor vəzifəsində təqaüdə çıxana kimi – 1995-ci ilə qədər çalışan kino adamını "Babək", "Dərviş Parisi partladır", "Evlənmək istəyirəm", "Özgə ömür" filmlərində də görürük. Adları çəkilən əksər filmlərdə oynadığı rollar epizodik olsa da, hər birini böyük həvəslə, lap baş qəhrəman şövqü ilə oynayıb. Çünki o özünü bütünlüklə kino sənətinə həsr etmiş, həyatının mənasını bu sənətdə tapmışdı.

O, əsl kino adamı, kino vurğunu idi. Milli kinomuzun durğunluq dönəmində də, yeni filmlərin ekranlaşdırılmağa başlandığı məqamlarda da ürəyi kino ilə döyündü. əbədi susana – 2002-ci ilin 16 sentyabrınadək, yəni son rolunu dublsuz ifa edənədək...

**H.NİZAMİQIZI**

# Gəncədə Xalq artisti Mobil Əhmədovun 90 illiyi qeyd edilib

Gəncə Regional Mədəniyyət İdarəsinin təşkilatçılığı ilə sentyabrın 10-da Gəncə şəhərindəki Məhsəti Gəncəvi Mərkəzinin qarşısında Xalq artisti, tanınmış vokal ifaçısı Mobil Əhmədovun (1931–2006) anadan olmasının 90 illiyinə həsr edilmiş tədbir keçirilib.



Tədbirdə Gəncə şəhər İcra Hakimiyyətinin əməkdaşı Azər İbrahimov, digər rəsmilər, millət vəkili Müşfiq Cəfərov, Mobil Əhmədovun qızı Nigar Əhmədova, mədəniyyət işçiləri, şəhər ziyalıları, ictimaiyyət nümayəndələri iştirak ediblər.

Əvvəlcə Vətən müharibəsi şəhidlərinin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra Mobil Əhmədovun ömür və sənət yolu barədə məlumat verilib.

Gəncə Dövlət Dram Teatrı aktyorlarının ifasında Mobil Əhmədovun vaxtilə Murad rolunda çıxış etdiyi "Durna" musiqili komediyasından (Səid Rüstəmov, Süleyman Rüstəm) parça təqdim edilib.

F.Əmirov adına Gəncə Dövlət Filarmoniyası kollektivinin təqdim etdiyi musiqi nömrələri tədbirə rəng qatıb. Musiqi proqramında Üzeyir Hacıbəylinin "Arşın mal alan" operettasından Əsgərin ariyası, Tofiq Quliyevin "Qızıl üzük", Süleyman Ələsgərovun "Küsmərəm" mahnıları səslənib.

Daha sonra çıxış edən teatrşünas Anar Burcəliyev tədbirin təşkilinə görə regional idarənin rəisi Vasif Cənnətova minnətdarlığını bildirib, Xalq artisti Mobil Əhmədovun vaxtilə Gəncədə yaşadığı evin divarına onun barelyefinin vurulmasını təklif edib.

Sonda Mobil Əhmədovun qızı Nigar Əhmədova atasının xatirəsinə göstərilən ehtirama görə təşkilatçılara və iştirakçılara təşəkkürünü ifadə edib.

№69 (1846)
15 sentyabr 2021
www.medeniyyet.az

# Zəfər salnaməsinin yazıldığı tarix

Qəhrəman və məğrur Azərbaycan əsgəri! Nə vaxt ki, Vətən göylərində qara buludlar sıxlaşdı dərhal ayağa qalxdınız. Otuz il öncə cənnət Qarabağda qara yellər əsdi. Məkrli düşmən havadarlarının dəstəyi ilə iç üzünü bir daha göstərdi. Köməksiz, düzənsiz və hərbi təchizatsızlıq üzündən bir addım geri çəkildiniz... Şəhər və kəndlərimiz od tutub yandı. Tarixi memarlıq abidələrimiz: məscid və minarələr, müqəddəs ziyarətgahlar dağıdıldı. İtki və yaralarımız çox dərin oldu. Bir milyondan çox insan yurd-yuvasından didərgin düşdü. Ədalətsiz və müdhiş müharibədən, talandan ürəklər parçalandı, göz yaşları leysan oldu.

"Qisas qurd ilə qiyamətə qalmaz", deyib babalar. Biz də buna inandıq! İnanırdıq ki, gec-tez qalib olacağıq. İnanırdıq ki, o gün uzaqda deyil, gələcək. Düşmən öz kinində, nifrətində boğulacaq. Qarabağ azad olacaq və qarabağlılar öz doğma yurduna, toylu-düyünlü günlərinə qovuşacaq.

Möhtəşəm tarixi günlərə şahidlik etdik. 2020-ci ilin 27 sentyabrında efir-ekrandan eşitdiklərimiz xalq olaraq sükutumuzu pozdu. Nisgilli Qarabağımız uğrunda müharibə başlanmışdı! Azərbaycan Ordusu hücuma keçib. Düşmən geri çəkilir... Sevincdən gözlərdə yaş, damarlarda qan çağladı...



Haqq savaşımızın yeddinci günü, 4 oktyabrda qüdrətli Ordumuz Cəbrayılı düşməndən azad elədi. 16 oktyabrda isə Füzuli rayonu işğaldan qurtuldu. Efirdən hər gün eşidilən yeni bir xəbər gözlərdə sevinc yaşlarına çevrilirdi: Azərbaycan Ordusu irəliləyir, Qubadlı və Zəngilan rayonu uğrunda döyüşlər gedir. Kəlbəcər rayonu Azərbaycan əsgərlərinin nəzarətinə keçdi... Azərbaycan əsgəri qəhrəmanlıq nümunəsi göstərdi. Düşmənin 30 il ərzində qurub möhkəmləndirdiyi keçilməz deyilən istehkamları bir anda vurub dağıtdı. Artıq müzəffər Ordumuz qeyri-adi döyüş əzmi, müharibə strategiyası ilə müasir hərb tarixinə yeni səhifələr yazdı.

Efirdə hər gün erməni işğalçılarının biabırçı məğlubiyyəti haqda məlumat verilirdi. Bildirilirdi ki, Cəbrayıl rayonu ərazisində gedən döyüşlərdə erməni zabitlər öz əsgərlərinə "Döyüşməyin mənası yoxdur. Onsuz da bacarmayacağıq. Geri çəkilmək lazımdır" deyirdi. Başqa bir məlumatda deyilirdi: "Hadrut qəsəbəsi uğrunda 30 nəfərlik xüsusi təyinatlı dəstəmiz 1500 erməni muzdlusunu pərən-pərən salıb. Azərbaycan əsgəri yaralı döyüş yoldaşını çiynində daşıdığı halda, erməni əsgərlər hətta qocaları qoyub qaçıblar". Bu xəbər isə qəlbimizi daha da qürurlandırır: "Azərbaycanın 400 nəfərlik cəsur döyüşçüsü Şuşada möhkəmlənmiş üç min erməni elit hərbi hissəsini qaçmağa məcbur edib".

Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusu haqqında "məğlubedilməzlik" mifi uydurulan Ermənistan silahlı birləşmələrinin 44 gündə axırına çıxdı. Noyabrın 8-də musiqi, sənət beşiyi Şuşamızın yağıdan azad edilməsi əməliyyatı isə həm qürurverici idi, həm də dünyanı heyrətə salmışdı. Prezident, Ali Baş Komandan İlham Əliyev həmin gün xalqımızın illərdir intizarla gözlədiyi müjdəni elan edirdi: "Şuşanın işğaldan azad edilməsi bizim gücümüzü bəyan etdi. Ordumuzun peşəkarlığını, hərbçilərimizin cəsarətini və qəhrəmanlığını göstərdi. Şuşanın götürülməsi çox böyük peşəkarlıq, cəsarət tələb edən əməliyyat idi. Əminəm ki, bu əməliyyat dünya hərb tarixində xüsusi yer tutacaq. Çünki bu əməliyyatı bizim qəhrəman hərbçilərimiz dağlardan, meşələrdən və cığırlardan keçərək yüngül silahlarla silahlanmış şəkildə azad ediblər. Şuşanın işğaldan azad edilməsi bizim şanlı Qələbəmizdir".

Bəli, Şuşa əməliyyatının Zəfərlə taclanması ilə işğalçının kürəyi yerə gəlmişdi. Məhz Ordumuzun yenilməz gücü 10 noyabr 2020-ci ildə işğalçı Ermənistanı kapitulyasiya aktını imzalamağa məcbur etdi. Ermənistan və onun havadarları Azərbaycan dövlətinin iradəsi ilə hesablaşmaq məcburiyyətində qaldı. Beləliklə, qalib Ordumuz 30 ilə yaxın mənfur düşmənin tapdağı altında qalan vətən torpaqlarını – Qarabağı azadlığına qovuşdurdu, Azərbaycanın ərazi bütövlüyünü bərpa etmiş oldu.

Prezident İlham Əliyevin son 17 ildə həyata keçirdiyi güclü ordu quruculuğu torpaqlarımızın işğaldan azad olmasında başlıca amil oldu. Bu müharibə eyni zamanda Azərbaycanın uğurlu xarici siyasətini ortaya qoydu. Beynəlxalq ictimaiyyət müharibənin gedişində Prezident İlham Əliyevin siyasi iradəsinə, diplomatik səriştəsinə şahid oldu. Ermənistanın havadarları olan beynəlxalq güclərin təzyiqləri qarşısında cəsarətlə dayandı, bir addım da geri çəkilmədi. Dünyanın aparıcı media orqanlarına davamlı verdiyi müsahibələrdə ölkəmizin bu müharibədə haqlı olduğunu, Azərbaycanın öz ərazi bütövlüyü ilə yanaşı, beynəlxalq hüququ və BMT-nin Ermənistanı işğalçı kimi tanıyan 4 qətnaməsini icra etdiyini dünya ictimaiyyətinin diqqətinə çatdırdı. Beləliklə, Azərbaycan həm də informasiya müharibəsində nə qədər güclü olduğunu nümayiş etdirdi. Düşmən və ona hər məqamda qahmar çıxanların Azərbaycan ərazilərinin ilhaq planı alt-üst edildi. Haqqımızda dolaşan məğlub xalq sindromu yox oldu.

Uzun illər Azərbaycan xalqı ürəyində vətən həsrəti, yurd nisgili daşıdı. Ancaq inamını bir gün belə itirmədi. Çünki rəhbərinə arxayın idi. Prezident İlham Əliyev çıxışlarında bu fikirləri dönə-dönə vurğulayırdı: "Biz Qarabağa qayıdacağıq, Qarabağ tarixi Azərbaycan torpağıdır". Dövlət başçımız ulu öndər Heydər Əliyevə və xalqımıza verdiyi vədinə sadiq qaldığını göstərdi. Ata vəsiyyətini yerinə yetirdi. Ordumuza, eləcə də möhkəm iradəli xalqına inanaraq Zəfər qazandı.

Dövlət başçısının imzaladığı sərəncamla Şuşanın işğaldan azad olunduğu 8 noyabr tarixi təqvimimizə Zəfər Günü olaraq yazıldı...

Bu gün cənnət Qarabağımız quruculuq meydanına çevrilib. Qüdrətli dövlətimizin gücü və ölkə rəhbərinin iradəsi, əzmi ilə qısa müddətdə azad olunmuş torpaqlarda həyat öz axarına düşəcək, yurd həsrətli insanlar öz ata yurduna dönəcək...

**Savalan FƏRƏCOV**

# Allahın gözəl əsəri – könlümüzün şəhəri





**Təranə VAHİD**

11 əvvəl, Şuşanın işğal günü ərəfəsində yazmışdım bu yazını. Ağlıma gəlməzdi ki, 11 ildən sonra böyük Zəfər yoluyla Şuşaya – Vaqif Poeziya Günlərinə gedəcəm, səfər yazıma da elə bu yazıyla başlayacam.

"...Yeddiqatın son döngəsini burulub o yerə çatırsan ki, həmin nöqtədə Yer üzü qurtarır. Yeddiqatdan keçə-keçə arınıb-durunub Yer üzünün cənnətinə – Şuşaya çatırsan. Göyün, yerin, rəngin, səsin yeddi qatına... Havanın bolluğundan havan çatışmır, təbiətin gözəlliyi ağlını başından alır, sevincdən, fərəhdən, heyrətdən uçursan, çox hündürdən yox, göy o qədər yaxındır ki, əlini uzatsan buluddan bir ələim qopararsan. Amma bu yerdə göyə əl uzatmaq günahdı...

...Əlinə fırça götürüb gözünün yaddaşına köçürdüklərini itib-batmasın deyə kətana köçürmək, ya da ürək döyüntülərini ipə-sapa düzüb bəstələmək istəyirsən, bunlar da olmasa, dünyanın bu axar-baxarlı yerində bir ağız ürəkdən, qarabağlı kimi oxumaq istəyirsən...

...Yeddiqatdan yuxarı hər nə varsa gözəldi, hər nə varsa möcüzədir. Səs kimi, söz kimi, Xarıbülbül kimi...

Allah şahiddir ki, biz Yeddiqatdan enmədik, Yeddiqatı itirmədik, əslində, möcüzəmizi itirdik. Möcüzəmizi qaytarmaq üçün mütləq Yeddiqatdan keçməliyik, lap ölümün yeddi qatından olsa belə...

("Mədəniyyət" qəzeti; 07.05.2010)

***

44 günlük Vətən müharibəsində oğullarımız ölümün yeddi qatından, Ali Baş Komandan siyasətin yeddi qatından keçib işğal olunmuş torpaqlarımızı, oğurlanmış cənnətimizi, Şuşa adlı möcüzəmizi AZAD etdilər.

***

Böyük Qələbəmizdən on ay sonra Zəfər yoluyla Şuşaya gedirik... 17 yaşımda ilk dəfə gördüyüm, gözəlliyinə aşiq olduğum, həsrətini 30 il ürəyimin başında Laçın dərdiylə qoşa daşıdığım Şuşaya...

Şuşaya gedirik... İçimdə hisslər, səslər, rənglər bir-birinə qarışıb. 30 il, düz 30 il bu mübarək günün yolunu gözləmişik...

Şuşaya gedirik... Könlümüzün, ruhumuzun şəhərinə – qibləsinə, Kəbəsinə... Maşın karvanı sevinci yerə-göyə sığmayan söz, sənət adamlarını Şuşaya aparır. Zamanın əqrəbləri Şuşaya yönəlib, hər kəsin qəlbində Şuşa döyünür...

Yolboyu avtobusun pəncərəsindən Vətənimizin gözəlliklərinə baxa-baxa ürəyimlə danışıram, "Qarabağı sevgi qaytardı" – deyirəm. Tezcə də fikrimi redaktə edirəm: Qarabağı eşq qaytardı, Qarabağ eşqi! Allah-Təala bu ilahi eşqin vüsalını 30 il ləngitdi, 30 il həsrət yağışı yağdı, dərd quraqlığı oldu, kədər küləyi əsdi, qəm qarı yağdı, amma bu xalq nə Qarabağ eşqindən, nə Qarabağ sevdasından əl çəkdi. Qarabağı Qarabağın diri, duru ruhu qaytardı. O ruh ki, hər kəsin qəlbinə hakim kəsildi, Qarabağ Azərbaycan, Azərbaycan Qarabağ oldu. Bu ruhu enməyə nə ermənilərin, nə də ikili siyasətlə dünyanın başına corab hörən dövlətlərin gücü yetmədi. Buna kainatın qızıl qanunu – İlahi ədalət deyirlər!

Şuşaya gedirik... Bərəkətli torpaqlarımızdan, abad şəhərlərimizdən, kəndlərimizdən keçib uzun illər işğal altında qalan torpaqlarımıza çatırıq. İnsanlığın üz qarası, erməni vandallarının xaraba qoyduğu, yandırıb talan etdiyi, Yer üzündən silməyə çalışdığı yurd yerlərimizdə işğalçıların qara ruhlarının qara izləri hələ də qaralır...

Uçuq-sökük evlərin içində boy verən, bu könlüsınıq evləri sahibsiz qoymayan, yurdun yaddaşını kökləriylə ruhuna, yarpaqlarına daşıyan ağacların başına dolanmaq istəyirəm.

Şuşaya gedirik... Aranın qızılı rəngini yaşıllıqlar əvəz edir. Şüşə kimi Zəfər yolu dağlara qalxır, yalçın qayalar, şiş dağlar, yaşıl yaylaqlar azadlığın sevincindən işıq saçır.

Get-gedə ruhum qanadlanır, pərvazlanır, havalanır. Ağlım kəsəndən elə bilmişəm ki, insanın kodu doğulduğu torpağa hesablanır. Torpağından ayrı düşən ilahi kodunu, əslində, taleyini itirir. O üzdəndir ki, bu dağlar, bu daşlar, bu yamaclar mənə belə doğma gəlir. Axı bu dağların o üzündə Laçın adlı Vətənim var...

Şuşaya gedirik... Uzaqdan Cıdır düzünün quşqonmaz sıldırımları ağarır. Ürəyimin başı göynəyir. Dünyada ən ağır, ən çətin yol Zəfər yoludur. 44 günlük Vətən müharibəsində Zəfər yolumuz sıldırımların, uçurumların ucundan keçdi.

Zəfər yolu həm də dünyanın ən gözəl yoludur. Bu yolun o başında əbədiyyət var.

Nəfəs-nəfəs Şuşaya yaxınlaşırıq.

Şuşadayıq, arzularımızın, dualarımızın şəhərində. Əlimi Şuşa torpağına toxundururam, bu toxunuş Allahın ətəyinə toxunmaq kimidir, müqəddəs...

Uca yaradana könlümüz səcdə, dilimiz şükür edir. Şuşaya şükranlıq yağışı yağır. Əminəm, O, bizi eşidir...

***

30 ilin ayrılığı, həsrəti əriyir, zaman dayandığı yerdən yoluna davam edir. Şuşaya qovuşan adamların üz-gözündən işıq yağır. Bu işıq seli Şuşanın ruhuyla birləşib şəhərin üstündə dolaşır.

Yazar dostlarımla şəhərin nağılvarı küçələrini dolaşırıq. Yaralanmış abidələrə, tikililərə salam verir, göz qırpmadan Şuşanı gözümüzün, ürəyimizin telefonumuzun yaddaşına köçürürük.

Vaxtilə bu şəhərin Gəncə, İrəvan, Ağoğlan adlı üç qapısı olduğunu xatırlayıram. Bu qürurlu şəhərin dördüncü qapısı Zəfər qapısı olacaq.

Şuşanın tarixini sevirəm. Gələn il 270 illiyini qeyd edəcəyimiz şəhərin 17 məhəlləsi, 17 məscidi, 17 məhəllə bulağı, karvansaraları, türbə və mədrəsələri, qədim Qala divarları, onlarla tarixi abidəsi zamanın sınağından çıxaraq bu məğrur və gözəl şəhərin sorağını hər yana yayıb.

Bu taclı şəhər zamanın gərdişindən, fələyin çərxindən, düşmənlərin fitnəsindən alnıaçıq, üzüağ çıxıb.

Qədim Qala divarlarına tamaşa edə-edə Şuşanın yaddaşında iz salan bir hadisəni xatırlayıram.

1795-ci ilin yayında Ağa Məhəmməd Şah Qacar 85 minlik qoşunuyla Şuşa qalasını 33 gün mühasirədə saxlayır və şirazlı Seyid Məhəmməd Ürfinin qəsidəsindən seçdiyi beyti İbrahimxəlil xana göndərir. Əsli fars dilində olan həmin beytin tərcüməsi belədir:

*Fələyin mancanağından fitnə daşı yağır,*
*Sən axmaqcasına Şişə içərisinə sığınmısan.*

İbrahimxəlil xan bu beyti alan kimi vəziri Molla Pənah Vaqif şaha cavab yazır:

*Əgər məni qoruyan, mənim bildiyimdirsə,*
*O, şişəni daşın qoltuğunda mühafizə edər.*

Şuşaya – Allahın gözəl əsərinə tamaşa edə-edə "Şuşanı qoruyan qoruyacaq" – deyirəm.

Bu qədim şəhəri tarixən yaşadan, qiymətli edən həm də onun dühaları olub.

Şuşa Ağabəyim ağanın, Xurşudbanu Natəvanın, Nəcəf bəy Vəzirovun, Əbdürrəhim bəy Haqverdiyevin, Yusif Vəzir Çəmənzəminlinin, Firidun bəy Köçərlinin və adlarını qeyd etmədiyimiz yüzlərlə söz adamlarının, alim, rəssam, təzkirəçi Mir Möhsün Nəvvabın, xanəndələrdən Xarrat Qulunun, Hacı Hüsünün, Sadıqcanın, Cabbar Qaryağdıoğlunun, Keçəçi oğlu Məhəmmədin, Seyid Şuşinskinin, Bülbülün, Zülfü Adıgözəlovun, Xan Şuşinskinin, bəstəkarlardan Üzeyir bəy Hacıbəylinin, Fikrət Əmirovun, Niyazinin və onlarla nadir insanların göz açdığı, boya-başa çatdığı, pərvazlandığı torpaqdır.

Axşamın alatoranlığında "Xan qızı bulağı"ndan su içirik. Su həyat qaynağıdır, Su aydınlıqıdr, Su qovuşuqdur. Suqovuşan azad olanda inanmışdım torpaqlarımızın azad olunacağına. Şəhidlərimizin, Qarabağ həsrətiylə dünyasını dəyişənlərimizin ehsanı olsun – deyib bu tarixi bulaqdan su içirik.

Yolumuzun üstündə qarşımıza Xurşudbanu Natəvanın, Üzeyir bəy Hacıbəylinin, Bülbülün büstləri çıxır. Bir vaxtlar Milli İncəsənət Muzeyinin həyətində gördüyüm, kədərləndiyim "Güllələnmiş heykəllər və gələcək yaddaş" adlı yazı yazdığım vaxtları xatırlayıram. Şuşanın inciləri indi öz torpaqlarında necə vüqarlı, necə qürurlu, necə xoşbəxtdir. Bu müqəddəs missiyanı yerinə yetirənlərə ürəyimdə min alqış deyirəm.

Günəşin son şəfəqləri Qarabağın sonuncu hakimi Mehdiqulu xan Cavanşirin yeganə qızı, tək incisi Xurşudbanu Natəvanın sarayını işıqlandırır. Dağıdılmış, talan olunmuş bu saraydan Qarabağ xanlığının əzəmətli keçmişi boylanır. O şanlı keçmişi silməyə kimsənin gücü yetməz.

Alatoranlıqda Şuşanın aşağı məhəlləsinə – Şuşa türməsinəcən gedib işıqları yanan Xankəndimizə tamaşa edirik. Şuşaya gəldiyimiz kimi, bir gün də xan babamızın kəndinə gedəcəyik.

***

Şuşada zaman su kimi axır, bir də xəbər tuturuq ki, Şuşada ulduzlar yanır.

Sabah Azərbaycan musiqisinin beşiyi, Qafqazın konservatoriyası, milli mədəniyyətimizin xəzinəsində yeni gün doğacaq, yeni tarix yazılacaq, sabah Şuşa başdan-başa POEZİYA olacaq...

***

...Şuşa, 30 avqust 2021-ci il. Günəşin zərrələri "Xarıbülbül" hotelinin qarşısındakı al-qırmızı qızılgüllərin ləçəyinə səpilir, gül sehrlənir. Bəlkə də sehrlənən bizik. Şuşadan Zəfərin, qızılgüllərin, şeirin ətri gəlir.

Belə xoş ovqatla poeziya bayramına yollanırıq.

Gözəllik şairi Molla Pənah Vaqifin məqbərəsi önündə 39 illik tarixi olan Vaqif Poeziya Günlərinin təntənəli açılışı olur. Ölkə başçısı İlham Əliyev, birinci xanım Mehriban Əliyeva poeziya bayramında iştirak edirlər.

Ali Baş Komandanın çıxışını tək iştirakçılar yox, tək Şuşa yox, bütün dünya eşidir:

"İşğal dövründə bir çoxlarımız – həm keçmiş məcburi köçkünlər, həm bütün Azərbaycan xalqı, o cümlədən də mən dəfələrlə fikirləşirdik ki, dünyada ədalət yoxdur. Çünki ədalət olsaydı, biz bu vəziyyətə düşməzdik. Mən də, o cümlədən, belə fikirdə idim. Ancaq həyat göstərdi ki, ədalət var, sadəcə, dözümlü olmaq lazımdır, səbirli olmaq lazımdır, ədalətə inanmaq lazımdır və ədalətə nail olmaq üçün çalışmaq lazımdır, hədəfə doğru getmək lazımdır, ədaləti bərpa etmək üçün fədakarlıq göstərmək lazımdır. Bu gün biz hamımız ürəyimizdə deyirik və açıq deyirik ki, bəli, ədalət var, ədalət bərpa edildi, biz bu gün Şuşadayıq və bundan sonra Şuşada əbədi yaşayacağıq".

Prezident tarixi çıxışıyla Şuşanın yeni tarixini yazır, Şuşaya alqışlar yağır!

Molla Pənah Vaqifin məqbərəsi önündə uzun illər Şuşa həsrətiylə yaşayan, "Üzeyir ömrü" filmiylə bizə Şuşalı günlər yaşadan Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar çıxış edir:

"Biz buraya Zəfər yolu ilə gəldik. Bu yolun əvvəli var, amma sonu yoxdur. Bu yol uzandıqca uzanacaq. Bu Zəfər yolu – Azərbaycanın hərbi gücünün yoludur, siyasi gücünün yoludur, iqtisadi gücünün yoludur və möhtəşəm Azərbaycan mədəniyyətinin, Azərbaycan ədəbiyyatının Zəfər yoludur!".

Zəfər yoluyla Şuşaya gələn Xalq şairi Nəriman Həsənzadə, Xalq yazıçısı Elçin ürək sözlərini dilə gətirir, AYB-nin katibi, şair-yazıçı İlqar Fəhminin, gənc şairlərdən Günel Şamilqızı, Şəhriyar Del Geraninin şeirləri, balaca xanəndənin böyük ürəyinin səsi poeziya bayramından əziz xatirə kimi yadda qalır...

***

31 avqust, 2021-ci il. Vaqifin məqbərəsi önündə poeziya bayramı davam edir.

Xalq şairi Sabir Rüstəmxanlı "Qarabağa dönüş" poemasından bir parça oxuyur, şairlərdən Vaqif Bəhmənli, Arif Buzovnalı, Asim Yadigar, İbrahim İlyaslı, Nigar Həsənzadə, Xəyal Rza, Rəsmiyyə Sabir, Əkbər Qoşalı, Fərid Hüseyn şeir deyir, muğamın beşiyində muğam müsabiqəsinin qalibləri Nisbət Sədrayeva, Xəyal Hüseynov muğam oxuyur, Xalq artistləri Mehriban Zəki, Pərviz Məmmədrzayev, Əməkdar artistlər Gülzar Qurbanova və Elşən Rüstəmovun ifasında "Nizamidən Vaqifə" adlı poetik kompozisiya miniatür sənət əsəri kimi yadda qalır.

***



Yolumuz şəninə şeirlər qoşulan, mahnılar bəstələnən, dünyanın axar-baxarlı yerinə – Cıdır düzünədir... Yüz illər boyu ərlərin, ərənlərin cıdıra çıxdıqları, at oynatdıqları bu yer böyük qəhrəmanlıqların şahididir. Müharibənin ən ağır vaxtlarında aslan pəncəli oğullarımız Cıdır düzünün sıldırımlarını birnəfəsə qalxaraq düşmənə qan uddurdular, Şuşanı azad edib hərb tariximizin ən şanlı, ən şərəfli səhifəsini yazdılar. Elə bu düzəngahda qanlarıyla tarixi yazan, torpaqlarımız uğrunda şəhid olan qəhrəman oğullarımızın ruhu qarşısında baş əyirik.

Bu tarixi yerdə "Xallı gürzə" romanında Qarabağ xanlığının böyük bir dövrünü qələmə alan yazıçı Mustafa Çəmənlini, "Ağdamda nəyim qaldı" romanıyla işğaldan əvvəlki Ağdamı "dirildən" yazıçı-dramaturq Əli Əmirlini, Şuşada anadan olub Kirs dağının həsrətiylə yaşayan "Azərbaycan" jurnalının baş redaktoru, tənqidçi, tərcüməçi İntiqam Qasımzadəni və başqa söz, sənət adamlarını görürəm. Mənə elə gəlir ki, bu məkanda neçə-neçə şeirin ilk misrası, neçə-neçə əsərin ilk cümləsi yazılır...

***

Şuşa səfərindən heç vaxt unutmayacağımız xatirələrlə ayrılırıq. Bu tarixi səfəri təşkil edən Heydər Əliyev Fonduna ayrıca təşəkkür edirik.

Bilmirəm, Şuşanın havasındandır, yoxsa suyundandır, yolboyu avtobusda poeziya bayramı davam edir. Xoşbəxtik, qürurluyuq, biz Şuşadan gəlirik!

**Bakı-Şuşa-Bakı**

# “Misilsiz cəsarət”

## 27 sentyabr – Anım Gününə həsr olunmuş sərgi keçiriləcək

Mədəniyyət Nazirliyi, “ASAN Xidmət”, Azərbaycan Rəssamlar İttifaqı, Azərbaycan Dövlət Rəsm Qalereyası, Xətai Sənət Mərkəzi və “ASAN Könüllülük Məktəbi”nin təşkilatçılığı ilə 27 sentyabr – Anım Gününə həsr olunmuş “Misilsiz cəsarət” adlı rəsm sərgisi açılacaq.

Sərginin ekspozisiyasında Azərbaycanın rəssam və heykəltəraşlarının müxtəlif üslub və janrlarda Vətən müharibəsi qəhrəmanlarının xatirəsinə həsr etdiyi əsərləri yer alacaq.

Sərgidə iştirak etmək istəyən rəssamlar sentyabrın 20-dək mövzuya uyğun rəsmlərinin keyfiyyətli fotosunu, əsərin adını, ölçüsünü və texnikasını, öz ad, soyad və əlaqə nömrələri ilə birgə resmqalereya@gmail.com ünvanına göndərə bilərlər.

Qeyd edək ki, sərgi Nazirlər Kabineti yanında Operativ Qərargahın COVİD-19 pandemiyası ilə əlaqədar qəbul etdiyi qaydalara uyğun keçiriləcək.

# “Şəhidlərimizi ehtiramla yad edirik!”

## Milli Kitabxananın metodik vəsaiti

M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanası 27 sentyabr – Anım Günü ilə bağlı “Şəhidlərimizi ehtiramla yad edirik!” adlı metodik vəsaiti virtual rejimdə istifadəçilərə təqdim edib. Metodik vəsait 2020-ci il Vətən müharibəsi şəhidlərinin əziz xatirəsinə həsr olunub.

Vəsait Prezident İlham Əliyevin “Azərbaycan Respublikasında Anım Gününün təsis edilməsi haqqında” sərəncamı ilə açılır. Həmçinin dövlət başçısının 2020-ci il sentyabrın 27-də xalqa müraciəti, “Bakı şəhərində Vətən müharibəsi memorial kompleksinin və Zəfər muzeyinin yaradılması haqqında” sərəncamı, digər sənədlər metodik topluda yer alıb.

“Tarixin ən şərəfli səhifəsi – İkinci Qarabağ müharibəsi” adlı materialda Qarabağ probleminin, ermənilərin yurd yerlərimizə olan iddialarının tarixinə qısa ekskurs edilir, otuzillik işğala son qoyan 44 günlük Vətən müharibəsindən söz açılır.

Metodik vəsaitdə Anım Günü ilə əlaqədar kitabxanalarda keçiriləcək tədbirlər – sərgilər, müsabiqələr və s. haqqında tövsiyələr verilib, nümunələr, müvafiq biblioqrafik mənbələr diqqətə çatdırılıb.

“Əlavələr” bölməsində İkinci Qarabağ müharibəsində şəhid olan əsgərlərin əziz xatirəsinin rəmzi olan Xarıbülbül, Vətən müharibəsində iştirak etmiş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının təltif edilməsi üçün təsis edilmiş orden və medallar haqqında məlumatlar da öz əksini tapıb.

Həmçinin mövzu ilə bağlı kitabların və dövri mətbuatda dərc olunan məqalələrin biblioqrafiyası verilib.

# Xatirə təqvimi

**15–17 sentyabr**

### Azərbaycan

**15 sentyabr 1905** – Azərbaycanda kukla teatrının yaradıcısı, aktyor, rejissor Molla Ağa Bəbirli (1905 – 22.10.1970) Bakıda anadan olub. “O olmasın, bu olsun”, “Bir məhəllədən iki nəfər”, “Sehrli xalat” filmlərində çəkilib, Akademik Dram Teatrında çıxış edib.

**15 sentyabr 1918** – Nuru paşanın komandanlığı altında Azərbaycan-türk (Osmanlı) Qafqaz İslam Ordusu Bakını “Sentrokaspi diktaturası” və daşnak qüvvələrindən azad edib. Həmin gün Gəncədə Azərbaycan Xalq Cümhuriyyətinin rəsmi mətbu orqanı – “Azərbaycan” qəzetinin ilk sayı çapdan çıxıb.

**15 sentyabr 2006** – Görkəmli bəstəkar, Xalq artisti, professor Vasif Zülfüqar oğlu Adıgözəlov (28.7.1935 – 2006) vəfat edib. Azərbaycan Bəstəkarlar İttifaqının sədri olub.

**15 sentyabr 2007** – Xalq rəssamı Elbəy Mirzə Həsən oğlu Rzaquliyev (17.6.1926 – 2007) vəfat edib. “Telefonçu qız”, “Arşın mal alan” (1965), “Gün keçdi”, “Arxadan vurulan zərbə” və s. filmlərin rəssamı olub.

**16 sentyabr 1909** – Azərbaycanın ilk kino aktrisalarından olan İzzət Mirzəağa qızı Orucova (1909 – 22.4.1983) Bakıda doğulub. “Sevil” (1929), “Almaz” (1936) filmlərində baş rollarda çəkilib. Sonralar tanınmış kimyaçı alim, Azərbaycan Elmlər Akademiyasının akademiki olub.

**16 sentyabr 1919** – Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin qəbul etdiyi qanuna əsasən, xalq məktəbləri kitabxanalarına türk (Azərbaycan) dilində kitablar almaq üçün Xalq Maarifi Nazirliyinə maliyyə vəsaiti ayrılıb. Cümhuriyyət dövründə ölkədə ümumi fondu 95 min nüsxə kitab olan 11 kitabxana vardı.

**16 sentyabr 1920** – Azərbaycan İnqilab Komitəsinin dekreti ilə musiqi alətləri və nəşrləri satılan mağazalar milliləşdirilib. Hökumət orkestr musiqiçilərinin səfərbərliyə alınaraq Xalq Maarif Komissarlığının sərəncamına verilməsi barədə qərar (4 oktyabr 1920) qəbul etmişdi.

**16 sentyabr 1934** – Əməkdar incəsənət xadimi, pianoçu, professor Elmira Yusif qızı Səfərova (1934-1997) Bakıda anadan olub.

**16 sentyabr 2000** – Əməkdar incəsənət xadimi, rejissor Nazim Hüseynqulu oğlu Abbasov (14.12.1938 – 2000) vəfat edib. Bədii (“Dvorjakın melodiyası”), sənədli və televiziya filmlərinin rejissoru olub.

**16 sentyabr 2002** – Tanınmış aktyor Bahadur Atabala oğlu Əliyev (24.2.1933 – 2002) vəfat edib. “Ulduz”, “Böyük dayaq” və s. filmlərdə çəkilib, filmlərin səsləndirilməsində iştirak edib.

**17 sentyabr 1946** – Xalq artisti, müğənni Səməd Səmədov (1946 – 24.7.2021) anadan olub. Toy və şənliklərdə populyar mahnıların ifaçısı kimi tanınıb.

**17 sentyabr 1956** – Rəssam, heykəltəraş Müslüm Ömər oğlu Eldarov (1956-2003) Bakıda doğulub. Bakı İncəsənət Mərkəzinin (“Yeni Gallery”) yaradıcılarından biri olub.

**17 sentyabr 2004** – Teatr rejissoru, Əməkdar incəsənət xadimi Məbud İbrahim oğlu İsmayılzadə (24.3.1927 – 2004) vəfat edib. Lənkəran Dram Teatrının bədii rəhbəri və direktoru olub.

**17 sentyabr 2014** – Xalq artisti, vokal ifaçısı Eldar Balağa oğlu Axundov (15.3.1949 – 2014) vəfat edib. Müdafiə Nazirliyinin Nümunəvi Hərbi Orkestrinin solisti olub.

### Dünya

**15 sentyabr 1789** – Amerika yazıçısı Ceyms Fenimor Kuper (James Fenimore Cooper; 1789 – 14.9.1851) anadan olub. Tarixi və macəra romanlarının müəllifidir: “Casus”, “Dəniz quldduru”, “Losman”, “Sonuncu mogikan”, “Ləpirçi” və s.

**15 sentyabr 1890** – İngilis yazıçısı, detektiv əsərlərin müəllifi Aqata Kristi (Agatha Mary Clarissa; 1890 – 12.1.1976) anadan olub. Əsərləri: “Rocer Ekroydun qətli”, “Yarımçıq portret”, “Şərq ekspressində qətl”, “Nildə ölüm” və s.

**15 sentyabr 1894** – Fransız kinorejissoru, “Oskar” laureatı Jan Renaur (1894–1979) anadan olub. Filmləri: “Böyük illüziya”, “Marselyoza”, “Fransız kankanı” və s.

**15 sentyabr 1914** – Türk yazıçısı Orxan Kamal (Mehmet Raşit Öğütçü; 1914 – 2.6.1970) Adananın Ceyhan qəsəbəsində doğulub. “Baba evi”, “Cəmilə”, “Yad qızı”, “Qürbət quşları” kimi romanları, “Çörək davası”, “Arxa küçə” və s. hekayələri yazıçıya geniş oxucu rəğbəti qazandırıb.

**15 sentyabr 1925** – Rus aktyoru, SSRİ Xalq artisti Kirill Lavrov (1925-2007) anadan olub. Filmləri: “Dirilər və ölülər”, “Karamazov qardaşları”, “Odun ram edilməsi” və s.

**16 sentyabr 1462** – İtalyan filosofu Pyetro Pomponassi (Pietro Pomponazzi; 1462-1525) anadan olub.

**16 sentyabr 1888** – Finlandiya yazıçısı, ədəbiyyat üzrə Nobel mükafatı (1939) laureatı Frans Emil Sillanpyya (Frans Eemil Sillanpaa; 1888-1964) anadan olub. Əsərləri: “Həyat və günəş”, “Adamlar yay gecəsində”, “Cavanlığında vəfat etmiş”.

**16 sentyabr 2016** – Məşhur türk kinoaktyoru, yazar Tarık Akan (Tarık Tahsin Üregül; 13.12.1949 – 2016) vəfat edib.

**17 sentyabr 1908** – Amerika yazıçısı, detektiv romanlar müəllifi Con Krizi (John Creasey; 1908-1973) anadan olub.

**17 sentyabr 1931** – İtalyan əsilli Amerika aktrisası, “Oskar” laureatı Enn Benkroft (Anne Bancroft – Anna Maria Louisa İtaliano; 1931-2005) anadan olub. Filmləri: “Məzun”, ”Nazaretli İsa”, “Əsgər Ceyn” və s.

**Hazırladı: Vüqar ORXAN**

# Güllərin nəğməsi

**Biz Azərbaycandanıq!**

Rəssamlar yaradıcılığı boyu ən müxtəlif janrlarda əsərlər yaratsalar da, bu fərqli estetik tutum daşıyıcıları arasında mütləq onlara daha yaxın olanı, tez-tez müraciət etdikləri də olur. ”Təklənmiş” psixoloji-yaradıcı durumlarını ilhamlarının pərvazlanmasına kökləyən rəssamlar üçün bunun nə demək olduğunu yəqin ki, onların özləri daha yaxşı bilirlər. Bunun səbəbini Moskvada yaşayıb-yaradan soydaşımız İlhamə Qurbanovadan soruşmasaq da, onun ərsəyə gətirdiyi çoxsaylı gül-çiçəkli natürmortlarda torpağın qüdrətini hiss etmək, yaratdığı ətirli gözəllik daşıyıcılarının ilhamverici sehrinə düşmək istəyinin qabarıqlığı duyulandır. Hələ sovet dönəmindən ailəsi ilə Rusiya paytaxtında yaşayan İlhamə xanımın bu gün ən böyük arzusu yəqin ki, düşmən tapdağından ”Dəmir yumruq”la azad edilmiş doğma Qarabağ çöllərindən toplayacağı gül-çiçəyə bədii görkəm verməkdir...



Çəkdiyi müxtəlif natürmortlarda görüntüyə gətirilən yasəmən, çobanyastığı, qızılgül, lalə, nərgiz, qərənfil və digər neçə-neçə gülün forma-biçimində və rəngində ruhunu oxşayan estetik qaynaqlar aşkar etdiyinə əmin olan rəssamın onlar üçün tapdığı bədii şərhdə, qabarıq görünən eşq, qürur və saflıqla bərabər, həsrətin sezilməsini də zamanına görə təbii saymaq olar. Ayrı-ayrı güllərdə ifadə olunmuş məna-məzmun yükündən “boylanan” bədii tutumun-duyğulandırıcı estetikanın tamaşıçısı ilə dialoq yaratmaq gücü görünən olduğundan, çox vaxt gözümüzdə adiləşən zəriflik rəmzlərində yaşantılarımızla səsləşən qaynaqların təsirinin əldə olunmasını müəllifin uğuru saymaq olar.





Odur ki, İlhamə xanımın bu əsərlərində avropalıların “cansızlıq və sakitlik” ifadəçisi kimi qəbul etdiklərindən daha çox fərqli estetika ilə qarşılaşırıq. İndicə dərilmiş çöl güllərinin vazada qərarlaşmasında onların təravətini qorumağa səy göstərilməsi, bu yerdəyişmənin çox vaxt təbətin “davamı” – onunla əlaqəli təqdimatı kimi düşünülməsi də “gül həyatı”nın əvvəlki kimi davam etdiyinə bədii işarədir. Yaxşı haldır ki, rəssam arzuladığı bu təəssüratı real-gerçəkçi bədii vasitələrlə əldə etməyə nail olub. Natürmortların məhz özünəməxsus yaxırəng improvizələri ilə duyğulandırıcı estetik qaynağa çevrilməsi də müəllifin davamlı axtarışlarının nəticəsidir.

Onun təbiətdən tam təcrid olunan güllərinin təqdimatında ilk baxışda klassik “sakitlik” hiss olunsa da, əslində, məkana arifanə baxışla burada da həyatın davam etdiyini sezmək mümkündür. Bunu gül-çiçəkli vazanın yerləşdiyi məkanın bədii həllində, masaüstünün tərtibatında, interyerlə əlaqəli təsvirində duymaq mümkündür. Elə rəssamın da niyyəti buradakı həyatın bir anlığa “qırılması”na tamaşaçısını inandırmaq, janrın məlum estetikasına özünəməxsus çalarlar əlavə etməkdir. Onun çoxsaylı natürmortlarında klassikaya bir qədər fərqli münasibətdə bunun yaddaqalan nəticələrini görmək mümkündür...

Bu yerdə qeyd edək ki, İlhamə Qurbanovanın bədii irsində yer alan digər janrlı əsərlərdə də müraciət olunan mövzulara özünəməxsus yanaşma mövcuddur. Bu mənada rəssamın süjetli tabloları xüsusilə diqqət çəkir. Müxtəlif illərdə çəkilmiş “Xocalı”, “Xudafərinli toy”, “Qız qalası əfsanəsi”, “Sevgi”, “Müjdə”, “Mənim dünyam” və “Yuxu” əsərləri bu qəbildəndir. Bu rəngkarlıq nümunələrinin estetikasında ovqatyaradıcılıq önə çəkildiyindən görüntüyə gətirilən motivlər və hadisələr tamaşaçı tərəfindən emosionallıqla qəbul olunurlar. Bəzən reallığı, bəzən də duyğu və düşüncələrini əyaniləşdirməyə çalışan rəssam, kompozisiyanı təşkil edən ayrıntıları müəyyən ovqata bələməyə üstünlük verməklə son nəticədə əsərin bədii bütövlüyün təsirli alınmasına nail olub. Bu mənada “Xocalı” faciəsinin insan harayının, “Xudafərinli toy”un isə nikbin duyğuların ifadəsi olduğunu qeyd etməliyik. Hər iki əsərdə rənglərin ovqatyaratmaq gücündən ustalıqla istifadə edən müəllif həm el kədərini, həm də el sevincini eyni uğurla bədiiləşdirib.

“Qız qalası əfsanəsi”nə bu vaxta qədər rastlaşmadığımız bədii şərh verən rəssam, baş verənlərdə suçsuzluğu birmənalı olan qızın ruhunun asimana yüksəldiyinə cəlbedici obraz-



lı görkəm verə bilib. Tikilinin və “ruh”un əhatələndiyi mənzərənin nikbinliyində də onun bu “gediş”inə bədii müəllif təqdiri duyulmaqdadır. İlhamə Qurbanovanın digər süjetli lövhələrinin məna-məzmun daşıyıcılığında da insan yaşantılarına hamını duyğulandıra biləcək yanaşma mövcuddur. Odur ki, istər “Sevgi”nin, istərsə də “Müjdə” və “Yuxu”nun leytmotivində, artıq yaşanmışlarla yanaşı, arzulananların da estetikasında ümid işığı görünməkdədir. Əksər hallarda obrazlı bədii şərhlə gerçəkləşən bu müəllif təqdimatlarında həm də düşündürücülük qərarlaşdığından, görünənlər arzu-tablo kimi də qəbul olunur.

Rəssam yuxarıda incələdiyimiz əsərlərində olduğu kimi, çəkdiyi mənzərələrində də ovqatyaradıcılığa meyillidir. Çünki o, təbiətin ən müxtəlif çağlarını sadəcə, təsvir etmək xatirinə bədiiləşdirmir. Onun an seçimində əvvəlcədən aparılan davamlı müşahidələrin nəticəsi hiss olunmaqdadır. Günün iki təzadlı məqamını – sübh çağını və qürubu görüntüyə gətirən müəllifin açıq dənizdə günəşin öləziməsinə və qədim kənd evlərinin qaranlığa qərq olmasına verdiyi bədii yozum real – gerçəkçi yanaşma ilə reallaşdığından, görünənlər inandırıcı və yaddaqalandır...

Rəssamın çəkdiyi rəngkarlıq və qrafik portretlərində də insan psixologiyasına nüfuz etmə istəyi hiss olunmaqdadır. Bunun üçün müəllifin seçdiyi bədii yanaşma da məntiqlidir. Belə ki, real-gerçəkçi vasitələrlə müxtəlif insan yaşantılarını daha inandırıcı ifadə etmək mümkündür.

Sonda məlumat üçün bildirək ki, həyat yoldaşı, tanınmış fırça ustası Qüdrət Qurbanovla birlikdə Bakıdakı məşhur “Əzimzadə məktəbi”ndə təhsil almış İlhamə xanım çoxdandır Moskvada yaşayır. Odur ki, onun bədii irsi Azərbaycanla yanaşı, Rusiyanın, o cümlədən dünyanın bir çox ölkələrinin də sənət xiridarlarına tanışdır. “Dünya Xalqlarının İncəsənəti” Beynəlxalq Assosiasiyasının üzvü olan həmyerlimiz öz yaradıcılığında ənənə və müasirliyin qovşağını yaşadan sənətkar kimi tanınmaqdadır. O həm də



Rusiya Xalqlar Dostluğu Universitetinin Landşaft memarlığı ixtisası üzrə məzunudur. Əlavə edək ki, rəssam beynəlxalq “Naxçıvan bəşəriyyətin beşiyidir” (2012) və “Qəbələ-2016” rəsm festivallarının iştirakçısı olub, 2013-cü ildə Moskvada Marina Svetayevanın Ev-Muzeyində fərdi sərgisi təşkil olunub...

**Ziyadxan ƏLİYEV**
**Əməkdar incəsənət xadimi, professor**

# “Leyli və Məcnun” Dnepr Beynəlxalq Kitab Festivalında

IV Dnepr Beynəlxalq Kitab Festivalında (”Dnepr Book Space”) dahi Azərbaycan şairi Nizami Gəncəvinin Ukraynada işıq üzü görmüş “Leyli və Məcnun” kitabının təqdimatı keçirilib. Kitab Azərbaycan Dövlət Tərcümə Mərkəzinin dəstəyi ilə nəşr edilib.

Mərkəzin Ukrayna təmsilçisi Marina Qonçaruk təqdimatı açaraq, Ukrayna-Azərbaycan ədəbi əlaqələri, qurumun bu sahənin inkişafına verdiyi töhfələr, Nizami Gəncəvi ədəbi irsinin tərcümələri və Ukrayna alimləri tərəfindən aparılan tədqiqatlardan bəhs edib.

Dnepropetrovsk Vilayəti Azərbaycanlıları Konqresinin nümayəndəsi Nəcəf Əhmədov iki xalq arasında ədəbi-mədəni əlaqələrin inkişafına xidmət edən tədbirin əhəmiyyətindən danışıb.

Ukraynalı məktəblilər “Leyli və Məcnun” əsərindən parçaları səsləndirib. Festival çərçivəsində “Leyli və Məcnun” kitabı ilə yanaşı, Dövlət Tərcümə Mərkəzinin Ukrayna dilində nəşrləri – “Müasir Azərbaycan poeziyası antologiyası”, İmadəddin Nəsiminin “Haqq yolu mən özüm oldum...” və digər kitablar sərgilənib.

# “Qarabağ Zəfəri” qısa hekayə müsabiqəsi

”Mücrü” nəşriyyatı 44 günlük Vətən müharibəsində Azərbaycan Ordusunun Qələbəsinin ildönümü münasibətilə ”Qarabağ Zəfəri” qısa hekayə müsabiqəsi elan edib. Müsabiqənin məqsədi çağdaş Azərbaycan ədəbiyyatına dəstək olmaq, oxucuların Qələbəmizə yaradıcı müstəvidə münasibətini üzə çıxarmaqdır.

“Qarabağ Zəfəri” qısa hekayə müsabiqəsinə göndərilmiş əsərlərin həcmi 44 sözdən çox olmamalıdır. Yalnız Azərbaycan dilində olan hekayələr qəbul olunur, iştirak üçün yaş məhdudiyyəti yoxdur.

Müəlliflər əsərləri ad və təxəllüsünü, əlaqə nömrəsini qeyd etməklə qisahekaye@gmail.com elektron ünvanına göndərməlidirlər. Əsər qəbulu 8 noyabradək davam edəcək.

İlk 10 yeri tutmuş müəlliflər kitab dəstləri və başqa hədiyyələrlə mükafatlandırılacaq, ilk 5 yerin qalibi diplomla təltif olunacaq. Müsabiqəyə göndərilmiş əsərlər kitab halında nəşr ediləcək.

Müsabiqənin şərtlərinə uyğun əsərlər www.mucru.art portalında yayımlanacaq.

# “Kitabi-Dədə Qorqud”un Günbəd əlyazması” çapdan çıxıb

AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun direktoru, akademik Möhsün Nağısoylunun “Kitabi-Dədə Qorqud”un Günbəd əlyazması” monoqrafiyası işıq üzü görüb. Nəşr 2019-cu ilin əvvəllərində İranda aşkar edilmiş Günbəd əlyazmasının tekstoloji-filoloji təhlilinə həsr olunmuş ilk monoqrafik araşdırmadır.




Kitab şərti olaraq iki hissəyə – əlyazmanın tekstoloji-filoloji araşdırmasını əhatə edən tədqiqat hissəsi və əlyazmanın tənqidi mətni və sözlüyünə bölünür. Əlyazmanın ilk dəfə hazırlanmış tənqidi mətni “Kitabi-Dədə Qorqud”un yeni mətninin müxtəlif adlarla təqdim olunan üç Türkiyə və bir Azərbaycan nəşri əsasında tərtib edilib.

Akademikin fikrincə, 31 vərəqdən ibarət olan əlyazma kitabı XVIII yüzilliyin sonlarında Təbrizdə hazırlanıb. Əlyazmanın paleoqrafik göstəriciləri və dil özəllikləri belə bir fikrə gəlməyə əsas verir. Kitab oğuz elinin bilicisi Dədə Qorqudun soylamalarından və eposun baş qəhrəmanı Qazan xan haqqındakı bir boydan ibarətdir. Sonda əlyazmanın faksimilesi də verilib.

“Elm və təhsil” nəşriyyatında çap olunan monoqrafiyanın elmi redaktoru akademik Kamal Abdulla, məsul redaktoru dosent Qətibə Vaqifqızıdır.

# "Moskva günü"ndə "Azərbaycan" pavilyonunda

## "Çalışdıq ki, buraya gələn hər kəs Azərbaycan ab-havasını hiss etsin"





Sentyabrın 11-12-də Moskvadakı Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisinin (VDNX) "Azərbaycan" pavilyonunda "Moskva-Bakı: qəlblər qoşa döyünür" adlı tədbir keçirilib. Tədbir Moskva şəhərinin əsasının qoyulmasının 874-cü ildönümünə həsr olunmuş ənənəvi bayram – "Şəhər günü" çərçivəsində təşkil edilib.

Ənənəvi olaraq hər il sentyabrın ikinci şənbə-bazar günlərində qeyd olunan "Moskva günü" tədbirlərinin ən rəngarəng məkanlarından biri də VDNX-dakı "Azərbaycan" pavilyonu idi. "Moskva-Bakı:qəlbləri birləşdirir" adlı tədbir "Azərbaycan" pavilyonu tərəfindən Rusiya paytaxtının sakinlərinə və qonaqlarına əsl bayram hədiyyəsi olub.

"Azərbaycan" pavilyonunun baş direktoru Səadət Kadırova bu kimi kütləvi bayramların ölkəmizin mədəniyyətinin təbliği baxımından böyük əhəmiyyət daşıdığını söyləyib. "Belə bir gündə Azərbaycan mədəniyyətini, xalqımızın adət-ənənələrini tanıtmaq fürsəti əldən verilə bilməz. Burada milli rəqslərimiz və musiqimiz, təamlar nümayiş olunur. Belə bir tədbir Azərbaycanı Moskva sakinlərinə, qonaqlarına tanıtmaq üçün fürsətdir. Çalışdıq ki, pavilyona gələn hər kəs Azərbaycan ab-havasını hiss etsin", – deyə o bildirib.

Tədbirin qonaqları sərgi-pavilyonda Azərbaycan məhsulları ilə tanış olmaq, məşhur Azərbaycan çayının dadına baxmaq, milli üslubda tərtib olunmuş foto zonasında yaddaqalan fotolar çəkdirmək imkanı əldə ediblər.

İncəsənət ustalarının ifasında Azərbaycan rəqsləri, xalq çalğı alətlərinin canlı ifası qonaqlarda xoş ovqat yaradıb.

Sərginin kreativ-bədii meydançasında arzu edən hər kəs Moskva və Bakının görməli yerlərinin rəsmlərini rəngləyib, Azərbaycan paytaxtına və ölkəmizin tarixi yerlərinə virtual tur həyata keçiriblər.

# Filmlərimiz beynəlxalq festivallarda

## "Suğra və oğulları" Cənubi Koreyaya, "Qırmızı" isə Rusiyaya gedir

əvvəli səh. 1-də

Suğra iki oğlu ilə birgə dağ kəndində yaşayır. Onun əri 1941-1945-ci il müharibəsində iştirak edir. Suğra uzun müddətdir ərindən xəbər ala bilmir, bu ərəfədə isə onun böyük oğluna da çağırış vərəqi gəlir. Ərindən sonra oğlunu da itirəcəyindən narahat olan Suğra tərəddüd edir və böyük oğlunu dağlarda gizlənən qaçaqların yanına göndərir. Bundan sonra o, ağır əziyyətlərlə üz-üzə qalır. Sevgi və nifrətlə dolu həyat onu gözləyir...

***

Rejissor Tahir Tahiroviçin "Qırmızı" filmi isə 19-24 sentyabr tarixində Rusiyanın Samara şəhərində XXVI Beynəlxalq "Uşaqlar üçün kino" festivalında nümayiş olunacaq.





Festivalın saytında verilən məlumata görə, tamaşaçıları geniş beynəlxalq proqram gözləyir. Festivalda Azərbaycan, Norveç, İsveç, İtaliya, Koreya Respublikası, Belarus və s. ölkələr təmsil olunacaq.

Ssenari müəllifi Sevda Sultanova, operatoru Əminə Həsənli olan "Qırmızı" filmi uzaq bir dağ kəndində yaşayan məktəbli qızdan bəhs edir. Valideynləri ayrıldığına görə evdə tək qalan qızın yeganə arzusu kəndin palçıqlı yollarında təzə qırmızı ayaqqabısını geyinməkdir. Ancaq qırmızı ayaqqabı geyinmək ona qismət olmur...

Onu da bildirək ki, "Uşaqlar üçün kino" festivalı çərçivəsində 2011-ci ildən Rusiya Mədəniyyət Nazirliyi və "Radost" xeyriyyə fondunun dəstəyi ilə çətin həyat şəraitində olan uşaqlar üçün məxsusi "Ümid artımı" proqramı da reallaşdırılır.

**LALƏ**

# "Azadlığa can atan şair"

## Daşkənddə Maqsud Şeyxzadə haqqında sənədli filmin təqdimatı

Daşkənd şəhərinin Ədiblər xiyabanında "Maqsud Şeyxzadə: azadlığa can atan şair" adlı sənədli filminin təqdimatı keçirilib. Tədbirdə Özbəkistanın elm, mədəniyyət və incəsənət xadimləri, şair və yazıçılar, Azərbaycan diasporunun üzvləri, tələbələr, media nümayəndələri iştirak edib.




Özbəkistanın "First Art Media" şirkəti, Daşkənddəki Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzi (AMM), "Azərbaycan Televiziya və Radio Verilişləri" QSC-nin dəstəyi ilə hazırlanan filmin bir hissəsinin çəkilişləri böyük şairin vətəni Azərbaycanda, doğulduğu Ağdaş rayonunda aparılıb.

Mərasimi Özbəkistan Nəqliyyat Universitetinin rektoru Adil Əbdürrəhmanov açaraq özbək ədəbiyyatının klassiki, şair, tərcüməçi, ədəbiyyatşünas, pedaqoq, tanınmış soydaşımız Maqsud Şeyxzadənin (1908-1967) həyat və yaradıcılığı haqqında məlumat verib.

Akademik Naim Kərimov M.Şeyxzadənin dram əsərlərini Şekspirin "Hamlet", "Otello", "Kral Lir" əsərləri ilə müqayisə edib və onun "Mirzə Uluqbəy", "Cəlaləddin Manguberdi" kimi əsərlərinin nəinki Özbəkistanda və Azərbaycanda, bütün Şərq aləmində şöhrət qazandığını bildirib: "Təsadüfi deyil ki, böyük özbək şairi Şükrulla M.Şeyxzadəni "Özbək ədəbiyyatının Şekspiri" adlandırıb".

AMM-in direktoru Samir Abbasov M.Şeyxzadənin öz yaradıcılığı ilə iki xalq arasında dostluq körpüsü yaratdığını, Hüseyn Cavid, Abdulla Şaiq kimi klassiklərimizdən dərs alan ədibin əsərlərinin özbək ədəbiyyatının inciləri siyahısına daxil edildiyini bildirib.

"Özbəkkino" Milli Agentliyi baş direktorunun birinci müavini Şuxrat Rizayev bildirib ki, Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin sərəncamı ilə abidələri Ədiblər xiyabanında ucaldılan klassik şair və yazıçılar haqqında filmlər çəkilir, onların əsərləri yenidən nəşr edilir. M.Şeyxzadə də onlardan biridir.

# "Yenə günəşin istisinə sığınaraq Xəzərin sahilində gəzmək istərdim"

Ukraynanın Xalq artisti, Azərbaycan tamaşaçısının "Telefonçu qız" filmindən (1962, rejissor Həsən Seyidbəyli) tanıdığı Raisa Nedaşkovskaya Kiyevdə mükafatla təltif olunub. Aktrisa teatr sənətinin inkişafındakı xidmətinə görə "Kiyevskaya Pektoral" mükafatına layiq görülüb.





Mərasimdə öncə Kiyevin bir neçə teatrının aktyorları tərəfindən səhnəciklər göstərilib.

R.Nedaşkovskaya mükafata və diqqətə görə təşəkkürünü bildirib. Karyerası haqqında danışan aktrisa kino və teatr sənətini seçdiyi üçün xoşbəxt olduğunu vurğulayıb. O, çəkildiyi ekran əsərlərindən söz açarkən "Telefonçu qız" filmi haqqında xoş xatirələrini danışıb. Azərbaycanda filmə çəkilərkən 19 yaşının olduğunu deyən aktrisa ümumilikdə 50-yə yaxın filmdə rol aldığını, Mehriban obrazını çox sevdiyini bildirib.

Sonuncu dəfə Bakıda 40 il əvvəl olduğunu deyən aktrisa yenə də günəşin istisinə sığınaraq Xəzərin sahilində gəzmək istədiyini dilə gətirib: "Azərbaycanda unudulmadığım üçün bir qadın kimi özümü xoşbəxt sayıram. Azərbaycan mənə əzizdir, "Telefonçu qız" filmindəki Mehriban obrazı karyeramda ən uğurlu rollarımdan biridir", - deyə Raisa Nedaşkovskaya əlavə edib.

O, mükafatlandırma mərasimində azərbaycanlıların da iştirak etdiyini məmnunluqla vurğulayıb.

Tədbirin sonunda Kiyevdəki Müslüm Maqomayev adına Mədəniyyət Mərkəzinin rəhbəri, Ukraynanın Xalq artisti Qurban Abbasov və müğənni Natalya Kudyaşova Azərbaycan və Ukrayna musiqilərindən ibarət kompozisiya ilə çıxış ediblər.



# 78-ci Venesiya Film Festivalının qalibləri elan edilib

Sentyabrın 1-dən 11-dək davam edən 78-ci Venesiya Beynəlxalq Film Festivalının qala mərasimində qaliblər elan olunub.

Festivalın əsas mükafatı – "Müqəddəs Markın qızıl şiri"ni fransız xanım rejissor Odri Divanın "Hadisə" filmi qazanıb. "Ən yaxşı rejissor" nominasiyasında "Gümüş şir" mükafatına "Köpəyin gücü" filminə görə Ceyn Kempion layiq görülüb. Venesiya Film Festivalı münsiflər heyətinin Qran-prisi "Allahın əli" filminə görə Paolo Sorrentinoya təqdim edilib. İspan aktrisası Penelopa Kruz həmvətəni Pedro Almodovarın "Paralel analar" filmindəki roluna görə "Volpi kuboku"na ("Ən yaxşı aktrisa") layiq görülüb.

Qeyd edək ki, bu il festivalın əsas müsabiqə proqramına 21 film daxil edilmişdi.

# Latviyada Fikrət Əmirovun musiqisi səslənib

Latviyanın Yurmala şəhərində ənənəvi 18-ci Kremerata Baltika Beynəlxalq Festivalı keçirilib. Budəfəki festival "Kremerata Baltica" kamera orkestrinin 25, məşhur latviyalı skripkaçı və orkestrin yaradıcısı Gidon Kremerin isə 75 illik yubileylərinə həsr edilib.



Tədbirdə dinləyicilərə Azərbaycanın tanınmış dirijoru Fuad İbrahimovun rəhbərliyi ilə konsert proqramı təqdim olunub.

Proqramda bir sıra tanınmış bəstəkarların əsərləri, o cümlədən Azərbaycan bəstəkarı Fikrət Əmirovun dahi şair və mütəfəkkir Nizami Gəncəviyə həsr etdiyi "Nizami" simfoniyası ifa olunub. Əsər dinləyicilər tərəfindən böyük maraq və alqışlarla qarşılanıb.

Azərbaycan simfonik musiqisinin şah əsərlərindən hesab olunan bu əsərin beynəlxalq festivalda ifası "Nizami Gəncəvi İli"nə gözəl töhfə olmaqla yanaşı, Azərbaycan-Latviya mədəni əlaqələrində də mühüm hadisədir.

# Ölkəmiz Parisdə "Assosiasiyalar forumu"nda təmsil olunub

Fransa-Azərbaycan Dialoqu Assosiasiyası (ADFA) ölkəmizi Parisin 15-ci rayonunda "Assosiasiyalar forumu" adlı ənənəvi mədəniyyət tədbirində təmsil edib.

"Assosiasiyalar forumu" Parisin 15-ci rayonunun meriyasının qarşısındakı meydanda təşkil olunub. Burada müxtəlif sahələrdə fəaliyyət göstərən assosiasiyaların fəaliyyətini əks etdirən 200-dən çox stend qurulub.

Ölkəmizi təmsil edən ADFA-nın stendində Heydər Əliyev Fondu tərəfindən fransız dilində nəşr edilmiş Azərbaycan tarixi və mədəniyyətinə dair kitablar, mədəniyyətimizi əks etdirən milli əşyalar, geyimlər, xalça nümunələri eləcə də milli şirniyyatlarımız təqdim olunub.

ADFA-nın stendini ziyarət edənlərə, o cümlədən tədbirin təşkilatçılarına assosiasiyanın fəaliyyəti, eləcə də ölkəmiz, tariximiz və mədəniyyətimiz haqqında ətraflı məlumat verilib, kitablar hədiyyə edilib. Parisdə yaşayan diaspor nümayəndələrimiz də ADFA-nın stendini ziyarət ediblər.

# Türk dünyası solistlərinin iştirakı ilə İzmirdə konsert keçirilib

Dünya Birləşmiş Şəhərlər və Yerli İdarələr Təşkilatının Türkiyənin İzmir şəhərində keçirilən Mədəniyyət zirvəsinin bağlanış mərasimi Türk dünyasını təmsil edən solistlərin iştirak etdiyi konsert proqramı ilə yadda qalıb.



Konsert Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı – TÜRKSOY və İzmir Böyükşəhər Bələdiyyəsinin birgə təşkilatçılığı ilə gerçəkləşib.

Solistlər TÜRKSOY Gənclər xoru, İzmir Dövlət Opera və Balet Xoru və "Əl-ələ" musiqi simfonik orkestrinin müşayiəti ilə gözəl musiqi nömrələri ifa ediblər. "Yunus Əmrə və Türk dili İli" çərçivəsində təqdim olunan proqram Ahmet Adnan Saygunun "Yunus Əmrə" oratoriyasından bir bölümlə başlayıb.

Türkdilli ölkələrin sənətçilərinin konsertində Azərbaycanı vokalçı Çinarə Şirinova təmsil edib.

"Zəngin mədəniyyət proqramları ilə Yunus Əmrənin humanizmini və dünya tolerantlıq mesajlarını gələcək nəsillərə çatdırırıq", – deyə TÜRKSOY-un Baş katibi Düsen Kaseinov konsertlə bağlı açıqlamasında vurğulayıb.

Qeyd edək ki, pandemiya səbəbindən çıxışlarına bir müddət ara verən TÜRKSOY Gənclər xoru bu yaxınlarda Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan və Türkmənistanın müstəqilliyinin 30-cu ildönümü münasibətilə Türkiyənin şəhərlərində qastrol səfərində olub.

**Mehparə SULTANOVA**
**Ankara**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
MƏDƏNİYYƏT
Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev
**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə
**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79; 530-34-38 (müxbirlər)
511-76-04 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279
**İndeks:** 0187
**Qiyməti:** 60 qəpik
"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 4736
**Sifariş:** 1730
**Buraxılışa məsul:** Fariz Yunisli
Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.